RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 78 (8957) ŞƏNBƏ, 16 aprel 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Quruculuğun baş meydanı

## İlham Əliyev Qarabağ və Şərqi Zəngəzuru dünyaya nümunə göstərəcək



Azərbaycan Prezidenti mütəmadi olaraq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən layihələrə şəxsən nəzarət edir, müxtəlif yeni obyektlərin təməlini qoyur, bəzilərinin isə açılışını edib xeyir-duasını verir. Dövlət başçısı müşavirədə bir daha görülən işləri dəyərləndirdi, qarşıda dayanan vacib işlərlə bağlı ciddi tapşırıqlarını verdi. Qeyd edildi ki, Qarabağın yenidən qurulması proqramının icrası üçün dövlət büdcəsindən ayrılan 2,2 milyard manat vəsaitin 346 milyon manatı, yaxud 16 faizə yaxın hissəsi artıq yerinə yetirilib.

→ 4

## Azərbaycanla Gürcüstan arasında yükdaşımaların həcminin artırılması zəruridir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 15-də Gürcüstanın Baş nazirinin müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Levan Davitaşvilini qəbul edib.

→ 2

## Qaradağ Günəş-Elektrik Stansiyası layihəsinin icrası qarşılıqlı maraqların və imkanların təminatının yaxşı nümunəsidir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 15-də Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri, Abu-Dabi Milli Neft Şirkətinin idarəedici direktoru, BƏƏ-nin iqlim dəyişikliyi üzrə xüsusi nümayəndəsi, "Masdar" şirkətinin sədri Sultan Əhməd Əl Caberi qəbul edib.

→ 2

## Hərbi qulluqçular da məcburi icbari narkoloji müayinədən keçiriləcək

Aprelin 15-də Milli Məclisin yaz sessiyasında növbəti plenar iclası keçirilib. Spiker Sahibə Qafarovanın sədrliyi ilə keçirilən iclasda deputatlar gündəliyə münasibət bildirdikdən sonra cari məsələlərin müzakirəsinə başlanılıb.

Komitə sədri Siyavuş Novruzov, deputatlardan Bəhruz Məhərrəmov, Razi Nurullayev, Musa Qasımlı, Elman Nəsirov, Qüdrət Həsənquliyev, Tural Gəncəliyev, Fazil Mustafa, Könül Nurullayeva, Əli Məsimli gündəmdə olan bəzi məsələlər barədə danışıb, fikir və təkliflərini səsləndiriblər.

Çıxışlarda Prezident İlham Əliyevin sədrliyi ilə bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirənin siyasi və iqtisadi əhəmiyyəti, real vəziyyət barədə vətəndaşların birbaşa dövlət başçısı tərəfindən məlumatlandırılmasının önəmli olduğu vurğulanıb.

Deputatlar mətbuatda milli dövlət maraqlarının qorunmasının vacibliyi, ölkədə hərbi vətənpərvərlik tərbiyəsinin daha da gücləndirilməsi məsələlərinə toxunublar. Qeyd edilib ki, işğaldan azad edilmiş ərazilərdə aşkarlanmış kütləvi insan məzarlıqları tarixi faktlardır. Mülki vətəndaşlara yönəlmiş cinayətləri törədənlər məsuliyyətə cəlb olunmalı və Ermənistan dövlətinə qarşı beynəlxalq məhkəmələrdə başlanılan işlərdə bu dəlillərdən geniş istifadə edilməlidir.

Deputatlar seçiciləri düşündürən bir sıra problemləri də diqqətə çatdırıb, şəhid adının əbədiləşdirilməsi, əlilliyi olan şəxslərin sosial müdafiəsi məsələlərindən bəhs ediblər. Bu ildən başlayaraq təhsil kreditlərinin verilməsini yüksək qiymətləndiriblər.

Sonra iclasda gündəlikdəki məsələlər müzakirə olunub.

Milli Məclisin Sədri Sahibə Qafarova 14 məsələnin müzakirəyə çıxarıldığını vurğulayıb.

Gündəliyin birinci məsələsi "Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin Qərarında dəyişikliklər edilməsi barədə Milli Məclisin qərar layihəsi idi.

Qərar layihəsi səsə qoyularaq qəbul edilib.

İclasda Prezident tərəfindən təqdim edilmiş "Beynəlxalq Telekommunikasiya İttifaqının Radiorabitə Reqlamentinin və Ümumdünya Radiorabitə Konfransının Yekun Aktlarının təsdiq edilməsi haqqında" qanun layihəsi barədə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Elnur Allahverdiyev məlumat verib. Bildirib ki, Azərbaycan 193 dövlətin üzv olduğu Beynəlxalq Telekommunikasiya İttifaqının 1992-ci ildən etibarən üzvüdür. 2019-cu il noyabrın 22-də Şarm-əl-Şeyx şəhərində keçirilən Ümumdünya Radiorabitə Konfransında qəbul edilən Yekun Aktlar Azərbaycan Respublikası tərəfindən müvafiq bəyanatlarla imzalanıb. Yekun Aktlarda tezliklərin bölgüsü, tezlik təyinatlarının bildirişi və qeydiyyatı, digər texniki məsələlər öz əksini tapıb. Qeyd edilib ki, Beynəlxalq Telekommunikasiya İttifaqının Radiorabitə Reqlamenti özündə Ümumdünya Radiorabitə Konfransının qərarlarını birləşdirir. Təklif olunan reqlamentin əsas məqsədi bu ittifaqın üzvləri üçün ən son texniki nailiyyətlər əsasında tezliklərdən istifadəni lazımi şəkildə təmin etməkdir.

Səməd Seyidov rəhbərlik etdiyi Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin məsələ ilə bağlı müsbət rəyini bildirdikdən sonra qanun layihəsi bir oxunuşda səsə qoyularaq qəbul edilib.

→ 3

## Minsk qrupu heç kimə lazım deyil

### Artıq həmsədr dövlətlər də bu missiyanın öz əhəmiyyətini itirdiyini qəbul edirlər

ATƏT-in Minsk qrupu öz fəaliyyətində beynəlxalq hüquqa əsaslanırdı. Lakin bu missiya heç vaxt öz mandatına uyğun fəaliyyət göstərə, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə ola bilmədi.

Minsk qrupunun həll etməli olduğu problemi isə 2020-ci ilin Vətən müharibəsində Azərbaycan hərbi yolla onu həll etdi.

Vətən müharibəsi günlərində də Minsk qrupunun həmsədrləri 28 ildə səsləndirdikləri kimi problemin sülh yolu ilə həllinin vacibliyini önə çəkirdilər. Hansı ki, o sülhü onlar heç vaxt təmin edə bilmədilər. Baxmayaraq ki, bunun üçün kifayət qədər aydın və konkret əsaslar var idi. Bu sülhün əldə edilməsinin yolları beynəlxalq hüquqla dəqiq təsbit olunmuşdu. Elə buna görə də hələ 2020-ci ilin dekabrında Minsk qrupunun Fransadan və ABŞ-dan olan həmsədrlərini qəbul edən Prezident İlham Əliyev Minsk qrupunun 28 il ərzində problemin həllində heç bir rol oynamadığını birbaşa onların özlərinin diqqətinə çatdırmışdı.

Cari ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə Prezident İlham Əliyev bir daha bu mövzuda danışaraq deyib: "Biz bu münaqişəni özümüz həll etdik. Minsk qrupu İkinci Qarabağ müharibəsinə qədər 28 il fəaliyyətdə idi və həmsədr ölkələr bu illər ərzində Azərbaycana, Ermənistana bəlkə də yüzlərlə səfər etmişlər. Nəticə də göz qabağındadır, nəticə sıfır. Bunun səbəbləri də Azərbaycan ictimaiyyətinə məlumdur. Bu haqda çox danışmaq istəməzdim. Nəticə göz qabağındadır və bir daha demək istəyirəm ki, nəticə sıfır və Azərbaycan bu münaqişəni özü həll edib. Hərbi-siyasi yollarla həll edib".

Bir neçə gün əvvəl isə Rusiya tərəfi xatırladıb ki, Vaşinqton və Paris ATƏT-in Minsk qrupu həmsədrlərinin "üçlüyü" çərçivəsində Moskva ilə bütün əlaqələri dayandırıblar. Bu barədə danışan Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib ki, xüsusi tapşırıqlar üzrə səfir İqor Xovayev yeni qisimdə - məhz Rusiya Federasiyası xarici işlər nazirinin Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında münasibətlərin normallaşdırılmasına kömək məsələləri üzrə xüsusi nümayəndəsi kimi öz işini davam etdirəcək.

Rusiyanın xüsusi tapşırıqlar üzrə səfiri İqor Xovayevin Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmasının təşviqi üzrə xüsusi nümayəndəsi vəzifəsinə təyin edilməsi Kremlin Minsk qrupu formatından uzaqlaşaraq xüsusi nümayəndəlik institutuna üstünlük verdiyini göstərir. Xüsusi nümayəndəlik institutu isə sırf Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması məsələsi ilə məşğul olacaq.

Digər tərəfdən, bu yaxınlarda İrəvana səfər etmiş ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Bris Rokfeylinin də regiona tamam başqa statusla gəlməsi artıq Minsk qrupunun keçmişdə qaldığını göstərir. Ermənistan rəsmiləri və KİV-i onu Minsk qrupunun həmsədri kimi təqdim etsələr də, Rokfeylin İrəvana həmsədr kimi yox, Fransa Xarici İşlər Nazirliyinin Şərq Tərəfdaşlığı Proqramı üzrə nümayəndəsi kimi səfər etdiyi məlum olub.

Artıq üçtərəfli görüşlərdə, qəbul olunan bəyanatlarda Minsk qrupunun adı belə çəkilmir. Beləliklə, Minsk qrupu artıq proseslərdən kənardadır.

→ 5



## "Xarıbülbül" indi də dünyanı Şuşada toplayacaq

Mədəniyyət paytaxtımızda keçiriləcək "Xarıbülbül" Musiqi Festivalında müxtəlif ölkələrin folklor kollektivləri də çıxış edəcək




→ 7

## Ordu quruculuğunda yeni mərhələ başlayıb



→ 4

## Həmrəyliyə sadiqliyin təcəssümü

Azərbaycan Ukraynaya növbəti dəfə humanitar yardım göndərdi

→ 5

## Üfüqdə ümid yaranır

→ 8

## Vəziyyət yaxşılaşır

Qadağalar ləğv edilə bilər

→ 7

## Tərtərdə çiyid səpininə başlanılıb



→ 6

# Azərbaycanla Gürcüstan arasında yükdaşımaların həcminin artırılması zəruridir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 15-də Gürcüstanın Baş nazirinin müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Levan Davitaşvilini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan-Gürcüstan əlaqələrinin geniş gündəliyə malik olduğunu qeyd edərək həm ikitərəfli, həm də çoxtərəfli formatda əldə olunmuş razılıqların uğurla həyata keçirildiyini bildirdi və bu baxımdan, ilk növbədə, ölkələrimizin icra etdiyi birgə nəqliyyat və enerji layihələrinin önəmini vurğuladı. Prezident İlham Əliyev Azərbaycanla Gürcüstan arasında yükdaşımaların həcminin, mövcud infrastrukturun buraxılış qabiliyyətinin artırılmasının zəruriliyini qeyd etdi və bunun üçün yaxşı əsasın yaradıldığını bildirdi. Dövlət başçısı, eyni zamanda, ticarət dövriyyəsinin artımından məmnunluğunu ifadə edərək onun həcminin daha da çoxaldılması perspektivlərinin müəyyənləşdirilməsinin vacibliyini qeyd etdi.

Ölkələrimiz arasında sıx əlaqələrin mövcudluğunu vurğulayan Gürcüstanın Baş nazirinin müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Levan Davitaşvili bütün sahələrdə, o cümlədən iqtisadi sferada əlaqələrin uğurla inkişaf etdiyini bildirdi, ölkələrimiz arasında həyata keçirilən enerji və nəqliyyat layihələrinin həm regional, həm də qlobal əhəmiyyətini qeyd etdi. Qonaq, eyni zamanda, ticarət dövriyyəsinin artırılması üçün də böyük potensialın mövcud olduğunu bildirdi.

Görüşdə kənd təsərrüfatında və iqtisadiyyatın digər sahələrində birgə layihələrin həyata keçirilməsinin əhəmiyyəti, Azərbaycan-Gürcüstan iqtisadi əməkdaşlığının hər iki ölkənin iqtisadi inkişafında vacib rolu qeyd edildi.

# Aygün Attarın "Dostluq" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafında xüsusi xidmətlərinə görə Aygün Attar "Dostluq" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 aprel 2022-ci il*

# Qaradağ Günəş-Elektrik Stansiyası layihəsinin icrası qarşılıqlı maraqların və imkanların təminatının yaxşı nümunəsidir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 15-də Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri, Abu-Dabi Milli Neft Şirkətinin idarəedici direktoru, BƏƏ-nin iqlim dəyişikliyi üzrə xüsusi nümayəndəsi, "Masdar" şirkətinin sədri Sultan Əhməd Əl Caberi qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin siyasi, iqtisadi, investisiya qoyuluşu və digər sahələrdə uğurla inkişaf etdiyini bildirdi.

Prezident İlham Əliyev bu yaxınlarda Abu-Dabinin vəliəhdi, Birləşmiş Ərəb Əmirlikləri Silahlı Qüvvələrinin Ali Baş Komandanının müavini Məhəmməd bin Zayed Əl Nahyanla telefon danışığını xatırladaraq həmin söhbət zamanı əməkdaşlığımızın daha da genişləndirilməsi üçün birgə səylərin artırılmasının vacibliyinin qeyd olunduğunu bildirdi.

Bu ilin mart ayında Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti tərəfindən Azərbaycanda inşa ediləcək 230 MVt gücündə Qaradağ Günəş-Elektrik Stansiyasının təməlqoyma mərasimini xatırladan dövlətimizin başçısı həmin layihənin gələn ilin sonuna yaxın işə düşəcəyinə ümidvarlığını ifadə etdi. Prezident İlham Əliyev bu layihənin icrasını qarşılıqlı maraqların və imkanların təmin edilməsinin yaxşı nümunəsi kimi dəyərləndirdi.

Dövlətimizin başçısı bildirdi ki, ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğu nəzərə alınaraq birgə müəssisələrin yaradılması, investisiya imkanlarının müəyyənləşdirilməsi və digər müxtəlif layihələrdə iştirakın da daxil olduğu gələcək birgə iqtisadi gündəliyin reallaşdırılması mövcud potensialın maksimum dərəcədə təmin edilməsi işinə xidmət edə bilər.

Prezident İlham Əliyev Sultan Əhməd Əl Caberin ölkəmizə səfərinin uğurlu və səmərəli keçəcəyinə ümidvar olduğunu dedi.

Xoş sözlərə görə minnətdarlığını bildirən qonaq Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti və Baş naziri, Dubayın Əmiri Məhəmməd bin Rəşid Al Maktumun və Abu-Dabinin vəliəhdi, Birləşmiş Ərəb Əmirlikləri Silahlı Qüvvələrinin Ali Baş Komandanının müavini Məhəmməd bin Zayed Əl Nahyanın salamlarını və xoş arzularını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara və xoş arzulara görə minnətdarlığını bildirdi, onun da salamlarını Məhəmməd bin Rəşid Al Maktuma və Məhəmməd bin Zayed Əl Nahyana çatdırmağı xahiş etdi.

Qonaq vurğuladı ki, Məhəmməd bin Zayed Əl Nahyan ölkələrimiz arasında münasibətlərdə əldə edilmiş inkişafı yüksək qiymətləndirir, bu əlaqələrin önəmini xüsusi qeyd edir və tərəfdaşlığımızın daha da gücləndirilməsi əzmindədir.

# Baş nazir Əli Əsədov Gürcüstanın Baş nazirinin müavini, iqtisadiyyat və davamlı inkişaf naziri ilə görüşüb

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov aprelin 15-də Gürcüstanın Baş nazirinin müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Levan Davitaşvili ilə görüşüb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan-Gürcüstan dostluq münasibətlərinin müxtəlif istiqamətlərdə inkişafından məmnunluq ifadə edilib, birgə həyata keçirilən layihələrin əhəmiyyəti vurğulanıb.

Görüşdə iki ölkə arasında ticarət-iqtisadi, nəqliyyat-tranzit, sərmayə qoyuluşu, energetika və bir çox digər sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olunub.



# BƏƏ-nin yeni səfiri etimadnaməsinin surətini Azərbaycanın xarici işlər nazirinə təqdim edib

Aprelin 15-də xarici işlər naziri Ceyhun Bayramov Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Azərbaycan Respublikasına yeni təyin olunmuş səfiri Məhəmməd Əl Bluşi ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, səfir etimadnaməsinin surətini nazir Ceyhun Bayramova təqdim edib. Nazir Ceyhun Bayramov səfiri təyinatı münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb.

C.Bayramov Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında birgə tarixi, mədəni, dini bağlara əsaslanan və möhkəm təməl üzərində qurulan əlaqələrin son 30 il ərzində əhəmiyyətli inkişaf yolu keçdiyini məmnunluqla qeyd edib. İki dövlət arasında yüksək səviyyədə siyasi dialoqun mövcud olduğu, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə qarşılıqlı faydalı əməkdaşlığın həyata keçirildiyi vurğulanıb.



Səfir Məhəmməd Əl Bluşi BƏƏ-nin xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Şeyx Abdullah Bin Zayed Əl Nəhyanın salamlarını Ceyhun Bayramova çatdırıb. O, Azərbaycanda diplomatik fəaliyyəti müddətində iki ölkə arasında münasibətlərin daha da inkişafı üçün səylərini əsirgəməyəcəyini ifadə edib.

Tərəflər ikitərəfli əlaqələrin bir sıra sahələrdə, o cümlədən alternativ enerji, kənd təsərrüfatı, ərzaq təhlükəsizliyi, turizm, mədən sənayesi, azad iqtisadi zonalar və digər istiqamətlərdə inkişaf perspektivləri üzrə fikir mübadiləsi aparıblar.

Nazir Ceyhun Bayramov səfirə bölgədə mövcud olan münaqişəsonrası vəziyyət, azad olunmuş ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma işləri, habelə iki ölkə arasında normallaşma prosesi və bölgənin gələcək sülh və əmin-amanlıq şəraitində inkişafına dair Azərbaycanın baxışları barədə məlumat verib.

Səfir Məhəmməd Əl Bluşinin fəaliyyətinin Azərbaycan ilə BƏƏ arasında əlaqələrin daha da dərinləşməsinə xidmət edəcəyinə inam ifadə olunub, öz növbəsində Azərbaycan tərəfinin bütün lazımi dəstəyi göstərməyə hazır olduğu vurğulanıb.

# Minalardan və partlamamış hərbi sursatlardan təmizləmə üzrə İşçi Qrupun növbəti iclası keçirilib

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli məqsədilə yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Minalardan və partlamamış hərbi sursatlardan (PHS) təmizləmə üzrə İşçi Qrupunun növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA), Azərbaycan Respublikasının Nazirlər Kabinetinin, Xarici İşlər Nazirliyinin, İqtisadiyyat Nazirliyinin, Müdafiə Nazirliyinin, Fövqəladə Hallar Nazirliyinin (FHN) və Dövlət Sərhəd Xidmətinin məsul nümayəndələri iştirak ediblər.

Aidiyyəti dövlət orqanlarının nümayəndələrinin cəlb olunduğu iclasda Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən minatəmizləmə fəaliyyətinə dair təsdiq edilmiş illik tədbirlər planı üzrə ərazilərin mina və partlayıcı qurğulardan təmizlənməsi işlərinin icra vəziyyəti barədə məlumat verilib.

İşğaldan azad edilmiş ərazilərdə ANAMA tərəfindən icra edilən humanitar minatəmizləmə fəaliyyəti (2020-ci il noyabrın 10-dan 2022-ci il aprelin 14-dək 8372.9 hektar ərazi təmizlənmiş, 30 min 572 ədəd mina və PHS aşkar edilmiş, cari il aprelin 1-dən 14-dək isə 506.4 hektar ərazi təmizlənmiş, 595 ədəd mina və PHS aşkar edilərək zərərsizləşdirilib) barədə məlumat təqdim edilib. Agentliyə daxil olan müraciətlər əsasında bitmiş və hazırda davam edən minatəmizləmə layihələrinə dair müzakirələr aparılıb.



Aprel ayı ərzində Tərtər və Zəngilan rayonları ərazisində 1 nəfər mülki, 1 nəfər hərbçi olmaqla 2 nəfər mina partlayışından xəsarət alıb.

Müdafiə Nazirliyi tərəfindən həyata keçirilən minatəmizləmə əməliyyatları barədə təqdim olunmuş məlumata əsasən cari il aprelin 1-dən 14-dək Müdafiə Nazirliyinin mühəndis qoşunlarının xüsusi bölmələri tərəfindən Ağdam, Kəlbəcər, Laçın, Qubadlı, Şuşa, Xocalı və Xocavənd rayonları üzrə 492.06 hektar ərazi təmizlənib, 71 ədəd PHS aşkar edilib. Təsdiq edilmiş tədbirlər planına əsasən sifariş olunan layihələrdən 19-u artıq yekunlaşıb, 14 layihə üzrə isə işlərin davam etdirildiyi bildirilib. Ümumilikdə Müdafiə Nazirliyi tərəfindən 15 min 26 hektar ərazinin mina və partlayıcı sursatlardan təmizlənməsi, 17 min 635 ədəd mina və PHS-in zərərsizləşdirilməsi vurğulanıb. Humanitar minatəmizləmə fəaliyyətinə dəstək məqsədilə mexaniki minatəmizləmə maşınlarının sayının artırılması ilə bağlı qeyd edilib ki, ayın sonuna qədər Türkiyə istehsalı olan 13 ədəd MEMATT-ın təhvil alınması gözlənilir.

Fövqəladə Hallar Nazirliyi tərəfindən həyata keçirilən minatəmizləmə əməliyyatları barədə təqdim olunmuş məlumata əsasən Ağdam və Füzuli rayonları istiqamətində cari il aprelin 13-dək ümumilikdə 1 milyon 14 min 872 kvadratmetr ərazi təmizlənib və 4097 ədəd mina və partlamamış hərbi sursat aşkarlanıb. Bildirilib ki, ərazilərin minalardan təmizlənməsi işinə 50 nəfərdən ibarət FHN minaaxtaran bölmələri cəlb edilib.

Dövlət Sərhəd Xidməti tərəfindən həyata keçirilən minatəmizləmə əməliyyatları barədə təqdim olunmuş məlumata əsasən aprel ayı ərzində 69 hektar ərazi təmizlənmiş, 38 ədəd mina və partlamamış hərbi sursat (2020-ci ilin noyabrından 2022-ci il aprelin 13-dək 775 hektar ərazi təmizlənib, 3102 ədəd mina və PHS) aşkar edilərək zərərsizləşdirilib.

Eyni yanaşma metodologiyası və bəlli standartların tətbiq edilməsi ilə təmizlənmiş ərazilərdə keyfiyyət yoxlamasının icrası məqsədilə Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi və Dövlət Sərhəd Xidmətinin müvafiq bölmə nümayəndələrinə ANAMA tərəfindən bu sahədə "Təlimçilərin təlimi"nin keçirilməsinin vacibliyi vurğulanıb.

Mina Sahələrinin Havadan Tədqiqatı - RAMS (Remote Aerial Minefield Survey) texnologiyası ilə ANAMA tərəfindən mina sahələrinin tədqiq olunması barədə məlumat verilib. Qeyd edilib ki, süni intellekt vasitəsilə keçən il ərzində Zəngilan, Füzuli, Cəbrayıl, Tərtər və Qubadlı rayonları üzrə 18 min hektar ərazi təhlil edilib. Süni intellekt texnologiyalarının proqram təminatı ərazilərdə aşkar edilən yeni obyektlər üzrə yaddaşın yenilənməsi imkanına malikdir. Həmçinin süni intellekt proqramı ərazilərin çirklənmə səviyyəsinə görə müxtəlif təmizləmə metodologiyalarının tətbiqini təmin edir.

Mina və müharibənin partlayıcı qalıqlarının təhlükəsi ilə bağlı maarifləndirmə tədbirlərinin davam etdirilməsinin əhəmiyyəti, vətəndaşlara diqqətli davranış və məsuliyyətli yanaşmanın təbliğ olunmasının vacibliyi vurğulanıb.

Aidiyyəti dövlət qurumlarının nümayəndələrinin iştirak etdiyi iclasda İşçi Qrupun fəaliyyətindən irəli gələn digər cari məsələlər ətrafında fikir mübadiləsi aparılıb, məsələlərin birgə həlli yolları təhlil olunub.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahına Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev rəhbərlik edir.

# Azərbaycan ilə Fələstin arasında münasibətlər həmrəylik, dostluq və qarşılıqlı hörmət prinsipləri çərçivəsində uğurla inkişaf edir

Aprelin 15-də Xarici İşlər Nazirliyində (XİN) Azərbaycan Respublikası ilə Fələstin Dövləti arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə tədbir və sərgi keçirilib.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib. Bildirilib ki, tədbirdə Azərbaycan XİN-in rəhbər heyəti, Fələstin Dövlətinin ölkəmizdəki səfiri, habelə səfirliyin əməkdaşları, Azərbaycanda fəaliyyət göstərən bir sıra ali təhsil ocaqlarının rəhbər şəxsləri iştirak ediblər.

Hər iki ölkənin Dövlət himnlərinin səslənməsi ilə başlayan tədbirdə çıxış edən xarici işlər nazirinin müavini Fariz Rzayev 1992-ci il aprelin 15-də Azərbaycan ilə Fələstin arasında diplomatik münasibətlərin qurulmasının tariximizdə əlamətdar hadisə olduğunu qeyd edib. O, Fələstinin Azərbaycanın öz müstəqilliyini bərpa etməsindən sonra onunla diplomatik münasibətlər quran ilk ölkələrdən biri olmasının dostluq və həmrəylik nümunəsi olduğunu bildirib. Azərbaycanın Fələstin ilə münasibətlərə önəm verdiyini qeyd edən F.Rzayev iki ölkə arasında beynəlxalq təşkilatlar çərçivəsində də uğurlu əməkdaşlığın mövcud olduğunu vurğulayıb. Nazir müavini möhkəm həmrəyliyə əsaslanan Azərbaycan-Fələstin münasibətlərinin bundan sonra da həm ikitərəfli, həm də çoxtərəfli səviyyədə uğurla inkişaf edəcəyinə inamını ifadə edib.

Sonra çıxış edən Fələstin Dövlətinin Azərbaycan Respublikasındakı səfiri Nəssir Əbdül Kərim Əbdül Rəhim mədəni və dini dəyərlərlə bir-birinə bağlı olan Azərbaycan ilə Fələstin arasında diplomatik münasibətlərin qurulmasının 30 ilinin tamam olması münasibətilə təbriklərini çatdırıb. Səfir bu illər ərzində iki ölkə arasında münasibətlərin həmrəylik, dostluq və qarşılıqlı hörmət prinsipləri çərçivəsində uğurla inkişaf etdiyini bildirib. Fələstin Dövlətinin Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə dəstəyi bir daha vurğulanıb. Nəssir Əbdül Kərim Əbdül Rəhim Azərbaycan və Fələstinin ikitərəfli formatla yanaşı, həm də bir sıra beynəlxalq təşkilatlar, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlıq etdiyini məmnunluqla qeyd edib. Səfir hər iki dövlətə və xalqa sülh, əmin-amanlıq, rifah arzulayıb, müqəddəs Ramazan ayı münasibətilə xoş arzularını çatdırıb.

Tədbirin sonunda iştirakçılar Azərbaycanla Fələstin arasında diplomatik münasibətlərin 30 illiyinə həsr edilmiş fotosərgi ilə tanış olublar.

# Albaniyanın Baş nazirinin Azərbaycana rəsmi səfəri başa çatıb

Albaniyanın Baş naziri Edi Ramanın Azərbaycana rəsmi səfəri aprelin 15-də başa çatıb. AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda Albaniyanın Baş nazirinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Albaniyanın Baş naziri Edi Ramanı Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayev, xarici işlər nazirinin müavini Xələf Xələfov və digər rəsmi şəxslər yola saldılar.

Milli Məclisin iclasında

# Hərbi qulluqçular da məcburi icbari narkoloji müayinədən keçiriləcək

Aprelin 15-də Milli Məclisin yaz sessiyasında növbəti plenar iclası keçirilib. Spiker Sahibə Qafarovanın sədrliyi ilə keçirilən iclasda deputatlar gündəliyə münasibət bildirdikdən sonra cari məsələlərin müzakirəsinə başlanılıb.





Komitə sədri Siyavuş Novruzov, deputatlardan Bəhruz Məhərrəmov, Razi Nurullayev, Musa Qasımlı, Elman Nəsirov, Qüdrət Həsənquliyev, Tural Gəncəliyev, Fazil Mustafa, Könül Nurullayeva, Əli Məsimli gündəmdə olan bəzi məsələlər barədə danışıb, fikir və təkliflərini səsləndiriblər.

Çıxışlarda Prezident İlham Əliyevin sədrliyi ilə bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirənin siyasi və iqtisadi əhəmiyyəti, real vəziyyət barədə vətəndaşların birbaşa dövlət başçısı tərəfindən məlumatlandırılmasının önəmli olduğu vurğulanıb. Deputatlar mətbuatda milli dövlət maraqlarının qorunmasının vacibliyi, ölkədə hərbi vətənpərvərlik tərbiyəsinin daha da gücləndirilməsi məsələlərinə toxunublar. Qeyd edilib ki, işğaldan azad edilmiş ərazilərdə aşkarlanmış kütləvi insan məzarlıqları tarixi faktlardır. Mülki vətəndaşlara yönəlmiş cinayətləri törədənlər məsuliyyətə cəlb olunmalı və Ermənistan dövlətinə qarşı beynəlxalq məhkəmələrdə başlanılan işlərdə bu dəlillərdən geniş istifadə edilməlidir.

Deputatlar seçiciləri düşündürən bir sıra problemləri də diqqətə çatdırıblar, şəhid adının əbədiləşdirilməsi, əlilliyi olan şəxslərin sosial müdafiəsi məsələlərindən bəhs ediblər. Bu ildən başlayaraq təhsil kreditlərinin verilməsini yüksək qiymətləndiriblər.

Sonra iclasda gündəlikdəki məsələlər müzakirə olunub.

Milli Məclisin Sədri Sahibə Qafarova 14 məsələnin müzakirəyə çıxarıldığını vurğulayıb.

Gündəliyin birinci məsələsi "Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin Qərarında dəyişikliklər edilməsi barədə Milli Məclisin qərar layihəsi idi.

Qərar layihəsi səsə qoyularaq qəbul edilib.

İclasda Prezident tərəfindən təqdim edilmiş "Beynəlxalq Telekommunikasiya İttifaqının Radiorabitə Reqlamentinin və Ümumdünya Radiorabitə Konfransının Yekun Aktlarının təsdiq edilməsi haqqında" qanun layihəsi barədə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Elnur Allahverdiyev məlumat verib. Bildirib ki, Azərbaycan 193 dövlətin üzv olduğu Beynəlxalq Telekommunikasiya İttifaqının 1992-ci ildən etibarən üzvüdür. 2019-cu il noyabrın 22-də Şarm-əl-Şeyx şəhərində keçirilən Ümumdünya Radiorabitə Konfransında qəbul edilən Yekun Aktlar Azərbaycan Respublikası tərəfindən müvafiq bəyanatlarla imzalanıb. Yekun Aktlarda tezliklərin bölgüsü, tezlik təyinatlarının bildirişi və qeydiyyatı, digər texniki məsələlər öz əksini tapıb. Qeyd edilib ki, Beynəlxalq Telekommunikasiya İttifaqının Radiorabitə Reqlamenti özündə Ümumdünya Radiorabitə Konfransının qərarlarını birləşdirir. Təklif olunan reqlamentin əsas məqsədi bu İttifaqın üzvləri üçün ən son texniki nailiyyətlər əsasında tezliklərdən istifadəni lazımi şəkildə təmin etməkdir.

Səməd Seyidov rəhbərlik etdiyi Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin məsələ ilə bağlı müsbət rəyini bildirdikdən sonra qanun layihəsi bir oxunuşda səsə qoyularaq qəbul edilib.

Gündəliyin növbəti beş məsələsi üçüncü oxunuşda təqdim olunub.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili mahiyyətcə bir-birinə yaxın olan iki məsələ - "Lisenziyalar və icazələr haqqında" qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) və "Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihələrinə dair məlumat verib. Bildirib ki, Prezident tərəfindən bir məktubda daxil olan hər iki sənəd "Media haqqında" qanuna əsasən hazırlanıb və lisenziya tələb olunan teleradio yayımı fəaliyyəti subyektlərinin həmin qanunla müəyyən edilmiş audiovizual media fəaliyyəti subyektlərinin təsnifatına uyğunlaşdırılması məqsədi daşıyır.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov Cinayət Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (üçüncü oxunuş) barədə məlumat verib. Bildirib ki, məcəlləyə təklif edilən dəyişiklik dəqiqləşdirmə məqsədi daşıyır və həm məhkəmə icraatı, həm də ibtidai istintaq zamanı məhkəmə nəzarətinin həyata keçirilməsi qaydasında məhkəmələrdə aparılan icraatın "Elektron məhkəmə" informasiya sistemi vasitəsi ilə aparılmasını müəyyən edir.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Komitə sədri Tahir Mirkişili "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" qanunda dəyişiklik edilməsi barədə layihəni üçüncü oxunuşda təqdim edib. Bildirib ki, qanunun 11.2-ci maddəsinə əsasən, həmin maddədə nəzərdə tutulan məqsədlər üçün özəlləşdirməni həyata keçirən dövlət orqanının hesabına özəlləşdirmədən əldə edilən vəsaitdən ayırmalar edilir. Təklif olunan dəyişiklikdə bu vəsaitlərin istifadə məqsədləri daha da genişləndirilir və buraya özəlləşdirmədən sonra müəssisələrin fəaliyyətinin dəstəklənməsi tədbirlərinin maliyyələşdirilməsi, dövlət əmlakının qorunub saxlanması və mühafizəsi, dövlət əmlakının satıcısının maddi-texniki bazasının möhkəmləndirilməsi məsələləri də daxil edilir.

Qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

"Antiinhisar fəaliyyəti haqqında", "Yeyinti məhsulları haqqında" və "Dövlət sirri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş) ilə bağlı İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Anar Məmmədov məlumat verərək bildirib ki, Azərbaycan Prezidentinin müvafiq fərmanları ilə Dövlət Ehtiyatları Agentliyi yaradılıb və agentliyin nizamnaməsi təsdiq edilib. Adıçəkilən qanunlara təklif olunan dəyişikliklər həmin fərmanlara uyğun olaraq hazırlanıb və dəqiqləşdirmə xarakteri daşıyır.

Sənədlə bağlı parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin və Aqrar siyasət komitəsinin müsbət rəyləri bildirildikdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Aydın Hüseynov "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini diqqətə çatdırıb. Bildirib ki, ölkə Prezidentinin "Torpaq münasibətlərinin tənzimlənməsi ilə bağlı bəzi məsələlər haqqında" 7 oktyabr 2021-ci il tarixli fərmanı ilə pay torpaqları üzərində mülkiyyət hüquqlarının rəsmiləşdirilməsi işlərinin başa çatdırılması, torpaq mülkiyyətçilərinin əkin subsidiyalarından yararlanması məqsədilə ləğv edilmiş sovxoz və kolxozların özəlləşdirilən torpaqlarından pay almış, lakin bu torpaqlar üzərində mülkiyyət hüququ rəsmiləşdirilməmiş şəxslərin hüquqlarının dövlət büdcəsinin vəsaiti hesabına daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınması və onlara dövlət reyestrindən çıxarışların, torpaq sahələrinin plan və ölçülərinin verilməsi təsbit edilib. Bununla yanaşı, "Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi barədə 5 noyabr 2021-ci il tarixli qanunla torpaq payı almış şəxslərin mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınması barədə daşınmaz əmlakın dövlət reyestrindən çıxarışın və texniki sənədlərin verilməsinə görə dövlət rüsumundan azad olma nəzərdə tutulub. Təqdim olunan qanun layihəsi "Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi barədə sənədə uyğun olaraq hazırlanıb.

Qanun layihəsi bir oxunuşda səsə qoyularaq qəbul edilib.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov mahiyyətcə bir-birinə yaxın olan növbəti iki məsələ - "Narkoloji xidmət və nəzarət haqqında", habelə "Hərbi qulluqçuların statusu haqqında", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında", "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi"ndə dəyişiklik edilməsi barədə qanun layihələri haqqında ikinci oxunuşda məlumat verib.

Bildirilib ki, qanunlara təklif olunan dəyişikliklər "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramının təsdiq edilməsi barədə" Azərbaycan Prezidentinin 2019-cu il 22 iyul tarixli Sərəncamının tələblərindən irəli gəlir. Təqdim olunan layihələrdə bir sıra kateqoriya şəxslərin, o cümlədən müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların - çağırış dövründə, həqiqi hərbi xidmətdə olan hərbi qulluqçuların - ildə bir dəfədən az olmayaraq kadr zabit heyətinə könüllü daxil olanların - müvafiq əmr imzalanmazdan əvvəl, bağlaşma əsasında həqiqi hərbi xidmətə könüllü daxil olanların - bağlaşma imzalanmazdan əvvəl icbari narkoloji müayinədən keçirilməsi təklif edilir.

Qanun layihələrinin aidiyyəti üzrə baxıldığı Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov və Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov sənədlərlə bağlı müsbət rəyləri səsləndiriblər.

Müzakirələr zamanı komitə sədri Siyavuş Novruzov, deputatlar Fazil Mustafa, Naqif Həmzəyev qeyd və təkliflərini bildiriblər. Komitə sədri Əhliman Əmiraslanov bəzi məqamlara aydınlıq gətirib.

Hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) ilə bağlı bildirib ki, məcəllədə satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələrin və ya psixotrop maddələri xeyli, külli və xüsusilə külli miqdarda əldə etmə, saxlama, hazırlama, emal etmə, daşımanı nəzərdə tutan hüquqi normalar müəyyən edilir. Belə əməllər külli və xüsusilə külli miqdarda törədildikdə onlara görə daha ağır sanksiya nəzərdə tutulur. Eyni zamanda, satış məqsədilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri, onların prekursorlarını əldə etmə, saxlama, hazırlama, habelə məcəllənin 235-ci, 237-ci və 240-cı maddələrində də nəzərdə tutulan əməllər xüsusilə külli miqdarda törədildikdə, onlara görə daha ağır sanksiyanı nəzərdə tutan yeni maddələrin əlavə edilməsi təklif olunur.

Nizami Səfərov, İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini də (ikinci oxunuş) təqdim edib. Bildirib ki, layihə narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin gücləndirilməsi məqsədilə "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsinə uyğunlaşdırılma məqsədilə hazırlanıb və bu sahədə cinayət məsuliyyətinə deyil, inzibati məsuliyyətə səbəb olan halları nəzərdə tutur.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov hər iki layihəyə komitədə baxıldığını və dəstəkləndiyini bildirib. Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov Cinayət Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) barədə məlumat verib. Bildirib ki, layihədə narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizənin gücləndirilməsi isiqamətlərindən biri kimi cinayət təqibi üzrə məhkəməyədək icraat zamanı qanunsuz dövriyyədən çıxarılmaqla maddi sübut kimi götürülmüş narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin miqdarı qanunla həmin maddələr üçün müəyyən edilmiş xüsusilə külli miqdarın aşağı həddindən artıq olduqda, onların məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi təklif edilir. Bununla bağlı məcəllənin bir sıra maddələrinə müvafiq dəyişikliklər və əlavələr nəzərdə tutulub. Səhiyyə komitəsinin rəyi nəzərə alınmaqla qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

İclasda Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov Cinayət Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edərək bildirib ki, məcəllənin 208-ci maddəsində "Təşkilat rəhbərləri tərəfindən xarici" sözləri "Xarici" sözü ilə əvəz edilir. Beləliklə, xarici iqtisadi fəaliyyətin həyata keçirilməsi nəticəsində əldə edilmiş və məcburi qaydada ölkəyə geri qaytarılmalı olan 20 min manatdan artıq məbləğdə xarici valyuta vəsaitini qaytarmama əməlinə görə cinayət məsuliyyətinə cəlb edilməli olan subyektlərin dairəsi ilə bağlı məhdudiyyət aradan qaldırılır. Artıq həm fiziki şəxslər, həm də hüquqi şəxslər bu növ cinayət əməlinə görə məsuliyyətə cəlb ediləcəklər.

Sənədlə bağlı deputatlar Vüqar Bayramov və Əziz Ələkbərov öz fikirlərini açıqlayıblar. Deputat Nurlan Həsənov çıxışlarda səsləndirilən sualları cavablandırdıqdan sonra qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Uğurlu sosial islahatlar 2022-ci ilin ilk rübündə də davam edərək növbəti irəliləyişlərə imkan verib

Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq ölkəmizdə son illər geniş miqyas alan, konkret nəticələrə yönələn sosial islahatlar, həmin islahatlardan irəli gələn müsbət trendlər bu ilin ilk rübündə də davam edib.




Mühüm nailiyyətlərdən biri də sosial islahatların beynəlxalq səviyyədə yüksək dəyərləndirilməsi olub.

AZƏRTAC xəbər verir ki, bunu əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev cari ilin birinci rübünün yekunlarına dair keçirilən kollegiya iclasında bildirib.

Nazir vurğulayıb ki, Prezident İlham Əliyevin sədrliyi ilə 2022-ci ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə dövlət başçısı deyib: "Bu ilin üç ayında ölkəmiz bütün sahələrdə uğurla inkişaf edib. Biz bu üç ayın yekunlarını keçən il əldə edilmiş uğurların davamı kimi qiymətləndirməliyik".

Ölkə Prezidentinin sosial sahəyə, həssas əhali qruplarına xüsusi qayğısı, imzaladığı fərman və sərəncamlar nəticəsində 2022-ci ilin əvvəlindən Azərbaycanda yeni ciddi sosial irəliləyişlərə imkan verən növbəti islahatlar həyata keçirilib. Qeyd olunub ki, illik maliyyə dəyəri 2,1 milyard manatdan çox olan bu yeni islahat paketi 3,4 milyon insanın rifahına dəstək olub. Həm əməkhaqlarında, həm də sosial təminat növləri üzrə ödənişlərdə yeni artımlar edilib.

Bu ilin ilk rübündə DOST Agentliyi Beynəlxalq Pensiya və Sosial Fondlar Assosiasiyasının fəxri fərmanına layiq görülüb. Bu günlərdə isə Avropa Sosial Şəbəkəsinin Avropa Sosial Xidmətlər Mükafatını qazanıb. Dövlət Sosial Müdafiə Fondu da Böyük Britaniyada keçirilən "Dövlət sektorunda transformasiyaya görə beynəlxalq mükafat" müsabiqəsinin "2022-ci ilin Beynəlxalq Dövlət Qurumu" ali mükafatına layiq görülüb. Bütün bunlar Prezident İlham Əliyevin tapşırıqları əsasında sosial sahədə ölkəmizdə aparılan islahatların uğurlarının beynəlxalq səviyyədə də yüksək dəyərləndirildiyini bir daha təsdiq edir.

Azərbaycan minimum pensiyanın nominal və alıcılıq qabiliyyəti indeksinə görə MDB-də birinci sıraya yüksəlib. Sosial-iqtisadi islahatlar, məşğulluq imkanlarının və əməkhaqlarının mütəmadi artımı, əmək münasibətlərində leqallaşmanın genişlənməsi nəticəsində sosial sığorta daxilolmalarında son üç ayda da artım baş verib. Bu artım 152 milyon manat və ya 17 faiz təşkil edib.

Sosial ödənişlərin hər ay vaxtlı-vaxtında həyata keçirilməsi təmin edilib. Artım dinamikası ünvanlı sosial yardımları da əhatə edib. Ünvanlı yardımın hər ailəyə düşən orta aylıq məbləği 21 faiz artaraq 300 manata çatıb.

Dövlət Məşğulluq Agentliyi tərəfindən bu ilin birinci rübündə 4 mindən çox şəxs özünüməşğulluq proqramına, 4,7 mindən çox şəxs peşə hazırlığı və peşəyönümü məsləhət tədbirlərinə cəlb edilib. 11 mindən çox şəxs münasib işlərlə təmin edilib. DOST mərkəzlərində 155 mindən çox və ümumilikdə fəaliyyət dövründə 806 mindən çox vətəndaşa xidmət göstərilib.

Şəhid ailələrinə və müharibə əlillərinə bu ilin ilk rübündə daha 200 mənzil, postmüharibə dövründə 3200, ümumilikdə cəmi 12500-dən çox mənzil və ya fərdi ev verilib. Bu il 1500 şəhid ailəsi və müharibə əlilinin mənzil və fərdi evlə təminatı nəzərdə tutulub.

İclasda nazirliyin fəaliyyət sahələrində cari ilin ilk rübündə görülən işlərin nəticələri ətraflı təhlil olunub.

# Milli Məclisin deputatı yenidən MDB PA komissiyasının sədr müavini vəzifəsinə seçilib







Aprelin 15-də MDB PA-nın Mədəniyyət, informasiya, turizm və idman üzrə daimi komissiyasının videokonfrans formatında iclası keçirilib.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, MDB PA-da Azərbaycanı deputatlar Rauf Əliyev və Tamam Cəfərova təmsil ediblər.

Tədbir MDB PA-nın Mədəniyyət, informasiya, turizm və idman üzrə daimi komissiyasının sədr müavini Rauf Əliyevin moderatorluğu ilə keçib.

Əvvəlcə təşkilati məsələlər həll edilib, Müstəqil Dövlətlər Birliyinin 2023-2025-ci illər üçün hazırlanan model qanunvericilik işlərinin perspektiv planına təkliflər nəzərdən keçirilib.

Milli Məclisin deputatı Rauf Əliyev yenidən MDB PA-nın Mədəniyyət, informasiya, turizm və idman üzrə daimi komissiyasının sədr müavini vəzifəsinə seçilib.

Sonra gündəlikdəki qanunvericilik məsələlərinə baxılıb. "Kinematoqrafiyaya dövlət dəstəyi haqqında", "Teatr və teatr fəaliyyəti haqqında" model qanunların və MDB dövlətləri üçün model Əqli Mülkiyyət Məcəlləsinin yeni redaksiyada təqdim olunmuş layihələri müzakirə edilib, "Televiziya və radio yayımı haqqında", "Elektron kommunikasiyalar haqqında" model qanun layihələrinin hazırlanması məsələləri müzakirə edilib.

Həmçinin deputatlar mədəniyyət və turizm sahələrində rəqəmsal inkişaf üzrə model qanun yaradıcılığının perspektiv istiqamətlərinin təhlili layihəsinin hazırlanması, komissiyanın 2021-ci ildə gördüyü işlər, MDB PA-nın 30 illiyinə həsr olunmuş tədbirlər və digər məsələlərə də münasibətlərini bildiriblər.

Yekunda komissiyanın növbəti iclasının tarixi və ilkin gündəliyi müəyyənləşdirilib.

# Quruculuğun baş meydanı

Vətən müharibəsində böyük zəfərdən sonra geniş tikinti-quruculuq meydanına çevrilən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bütün infrastrukturlar yenidən qurulur. Yeni avtomobil və dəmir yolları, körpülər, tunellər, hava limanları, elektrik və su xətləri, müasir yaşayış kompleksləri, məktəblər, xəstəxanalar, su-elektrik stansiyaları tikilir.

## İlham Əliyev Qarabağ və Şərqi Zəngəzuru dünyaya nümunə göstərəcək




Qarabağı "Dəmir yumruq"la alan Qalib Komandan İlham Əliyev Böyük qayıdış planının tezliklə reallaşması üçün işğaldan azad edilən torpaqlarımızda çox böyük layihələr həyata keçirir.

Aprelin 12-də cari ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə görülən işlərə bir daha toxunan İlham Əliyev həm reallığa çevrilən layihələrdən söz açdı, həm də hazırda həyata keçirilən proseslərin gedişatı ilə bağlı ətraflı məlumat verdi. İlham Əliyev bir daha vurğuladı ki, bütün layihələri Azərbaycan heç kimdən maddi yardım almadan yalnız öz gücünə reallaşdırır. Heç bir beynəlxalq təşkilat və fond bu prosesdə Azərbaycana yardım etmir. Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan yalnız öz iqtisadi gücünə arxalanaraq böyük işlər görür: "Azad edilmiş torpaqları da yüz faiz öz gücümüzə bərpa edirik. Bəli, xarici şirkətləri dəvət etmişik. Onlar orada podratçı kimi işləyir. Amma bu günə qədər heç kimdən bir manat almamışıq. Ancaq öz gücümüzə, öz istedadımıza güvənirik".

### Bu il minalardan təmizləmə əməliyyatlarına 100 milyon manat vəsait ayrılıb

Prezident ilk növbədə quruculuq və tikinti işlərinin aparılması üçün ərazilərin minalardan təmizlənmə prosesinin sürətləndirilməsinin vacibliyini bildirərək dedi ki, bunun üçün bu il dövlət büdcəsində 100 milyon manata yaxın vəsait nəzərdə tutulub və bu, dövlət üçün prioritet məsələdir. Çünki bu məsələ həll olunmadan vətəndaşların o bölgələrə yerləşdirilməsi qorxuludur. Ərazilər tam təmizləndikdən sonra soydaşlarımızın yurd-yuvalarına qayıdışına başlanılacaq.

Hazırda işğaldan azad olunmuş ərazilərdə üç qurum - ANAMA, Müdafiə Nazirliyinin bölmələri və Fövqəladə Hallar Nazirliyi minatəmizləmə işləri ilə məşğuldurlar. Dövlət tərəfindən prosesə dəstək verilməsi üçün yeni texnikanın alınması təmin edilir, o cümlədən ən müasir texnika, dronlar və digər cihazlar alınır. Prezident İlham Əliyev bu prosesdə iştirak etmək üçün digər yerli şirkətlərə də tövsiyələr verərək bildirdi ki, bu təşəbbüs həm də sahibkarlığın inkişafına təkan verəcək, eyni zamanda yerli şirkətlər burada təcrübə toplayıb öz xidmətlərini təqdim edə biləcəklər. Xarici şirkətlərə gəldikdə onların təklifi bu günə qədər qiymət baxımından o qədər də məqbul sayılmayıb. Çünki yerli şirkətlərin verdikləri qiymətlə xarici şirkətlərin verdikləri qiymətlər arasında dəfələrlə fərq var. Ona görə də üç dövlət qurumu ilə bərabər, minatəmizləmə əməliyyatlarında yerli şirkətlər nə qədər çox yaransa, o qədər məqsədəuyğundur.

### Bütün şəhər və qəsəbələrin baş planları bu il təsdiqlənməlidir

Qlobal böhranın dünya iqtisadiyyatına mənfi təsir etdiyi dönəmdə belə Azərbaycan öz gücünə işğaldan azad edilmiş torpaqlarında yenidənqurma, tikinti-quruculuq işləri aparır, həmçinin digər bölgələrimizdə də dövlət proqramında əksini tapmış layihələri gerçəkləşdirir.

Azərbaycan Prezidenti mütəmadi olaraq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən layihələrə şəxsən nəzarət edir, müxtəlif yeni obyektlərin təməlini qoyur, bəzilərinin isə açılışını edib xeyir-duasını verir.

Dövlət başçısı müşavirədə bir daha görülən işləri dəyərləndirdi, qarşıda dayanan vacib işlərlə bağlı ciddi tapşırıqlarını verdi. Qeyd edildi ki, Qarabağın yenidən qurulması proqramının icrası üçün dövlət büdcəsindən ayrılan 2,2 milyard manat vəsaitin 346 milyon manatı, yaxud 16 faizə yaxın hissəsi artıq yerinə yetirilib.

Hazırda Ağdam və Füzuli şəhərlərinin baş planlarının təsdiqləndiyini söyləyən Prezident tapşırdı ki, digər şəhərlərin də baş planlarının təsdiqlənməsi bu yaxınlarda öz həllini tapmalıdır. Şuşa, Cəbrayıl, Kəlbəcər, Zəngilan, Qubadlı şəhərlərinin, Hadrut və Suqovuşan qəsəbələrinin baş planları hazırlanmalıdır, bu il təsdiq edilməlidir və ondan sonra Qarabağ və Şərqi Zəngəzura aid olan investisiya proqramında əlavələr edilməlidir.

### 9 elektrik yarımstansiyasının, 4 SES-in açılışı olub, bu il daha 5 yarımstansiya inşa ediləcək

Hazırda Qarabağ və Şərqi Zəngəzurda elektrik yarımstansiyalarının inşası davam etdirilir. Xatırladaq ki, keçən il azad edilmiş torpaqlarda 9 elektrik yarımstansiyası inşa edilib. Bu da çox böyük göstəricidir. Eyni zamanda ən çətin relyefə malik olan Daşkəsəndən, Kəlbəcər dağlarından da elektrik xətləri çəkilib.

Ötən il Prezidentin iştirakı ilə 4 SES - Laçındakı "Güləbird", "Suqovuşan-1" və "Suqovuşan-2" kiçik su-elektrik stansiyalarının yenidənqurmadan sonra açılışı olub, "Kəlbəcər-1" Kiçik Su-Elektrik Stansiyasında işlər tamamlanıb. Mayın 12-də "Şuşa", iyunun 14-də "Füzuli" və "Şükürbəyli", avqustun 16-da "Kəlbəcər", oktyabrın 4-də "Cəbrayıl", oktyabrın 20-də "Zəngilan", oktyabrın 25-də isə "Qubadlı" yarımstansiyalarının açılışı olub. Ağdam rayonunda iki yerdə inşa edilən 110/35/10 kV-luq "Ağdam-1", "Ağdam-2" yarımstansiyalarının, o cümlədən "Qarabağ" Regional Rəqəmsal İdarəetmə Mərkəzinin tikintisi yekunlaşıb.

Azad olunmuş ərazilərdə ümumi uzunluğu 365 km məsafədə iki dövrəli olmaqla 10 istiqamətdə yüksəkgərginlikli 110 kilovoltluq elektrik verilişi xətti çəkilib.

Qarabağ və Şərqi Zəngəzurda tikilən 9 yarımstansiyanın hamısı Azərbaycanın ümumi enerji sisteminə qoşulmaqla yanaşı, tam rəqəmsallaşdırılıb. Belə ki, IV Sənaye İnqilabına uyğun olaraq intellektual enerjisistem konsepsiyası həyata keçirilib və müasir, dayanıqlı, rəqəmsallaşdırılmış yarımstansiyalar modeli formalaşdırılıb. İstismara verilən yarımstansiyalarda aktivlərin, proseslərin, resursların idarə edilməsi, açılıb qoşulma əməliyyatları, tədarük və paylanma zəncirlərinin təkmilləşdirilməsi, qüsurların vaxtında aradan qaldırılması proqram təminatı vasitəsilə avtomatik həyata keçirilir.

Görüləcək işlərə gəlincə isə Prezident dedi ki, azad edilmiş ərazilərdə bu il elektrik təchizatı ilə bağlı işlər davam etdiriləcək. Düşmən tərəfindən dağıdılan stansiyaların bərpası istiqamətində bu il beş stansiya bərpa ediləcək və bu stansiyaların gücü 27 meqavata bərabər olacaq.

Bu il "Xudafərin" və "Qız qalası" su elektrik stansiyalarının tikintisi ilə bağlı işlər sürətləndirilməlidir. Hazırda İran İslam Respublikası ilə danışıqlar aparılır. Həmçinin "bp" şirkəti ilə Cəbrayılda günəş-elektrik stansiyasının tikintisi üzrə danışıqlar gedir. Zəngilandan İran üzərindən Naxçıvana və oradan yenə də İranın enerji sisteminə və Türkiyəyə elektrik xətlərinin çəkilişi də gündəlikdə duran məsələlərdəndir.

Bütövlükdə təkcə azad edilmiş torpaqlarda bərpa olunan stansiyaların 9 min meqavatdan çox potensialı var və bu, Azərbaycanın ixrac imkanlarına da müsbət təsir göstərəcək.

### Bu il yeni yollar açılacaq, Zəngilan Beynəlxalq Hava Limanının inşası başa çatdırılacaq

İşğaldan azad edilmiş torpaqlarda quruculuq işlərinin həyata keçirilməsi üçün əlbəttə ki, ilk növbədə avtomobil yollarının tikintisi prioritet olmalıdır. Elə bu istiqamətdə görülən işlərə nəzər yetirsək, aydın şəkildə görərik ki, qısa müddətdə çox böyük layihələr reallaşdırılıb.

Prezident vurğuladı ki, tarixdə heç vaxt yollar olmayan yerlərdə, ərazilərdə təkcə keçən il 700 kilometrə yaxın yollar çəkilib. Yəni Azərbaycan-Ermənistan sərhədinə qədər bu yollar uzanır.

Hazırda inşa edilməkdə olan digər 15 avtomobil yolundakı vəziyyət ürəkaçandır. *Bu il Füzuli-Hadrut, Hadrut-Tuğ-Azıx mağarası, Bərdə-Ağdam, Qubadlı-Eyvazlı, Qubadlı-Mahmudlu-Yazdüzü-Ermənistan sərhədi, Kəlbəcər və Laçın rayonları ərazisində yol infrastrukturunun tikintisi, Laçın şəhərinə daxil olmadan yeni avtomobil yolunun tikintisi, Talış-Tapqaraqoyunlu-Qaşaltı-Naftalan avtomobil yollarının bu il istifadəyə verilməsi planlaşdırılır.*

*Bundan başqa, Xudafərin-Qubadlı-Laçın, Şükürbəyli-Cəbrayıl-Hadrut, Ağdam-Füzuli, Əhmədbəyli-Füzuli-Şuşa, Əhmədbəyli-Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd, Kəlbəcər-Laçın, Toğanalı-Kəlbəcər-İstisu avtomobil yollarının inşası da sürətlə davam etdirilir.*

İlham Əliyev onu da diqqətə çatdırdı ki, ən vacib yollardan biri Toğanalı-Kəlbəcər avtomobil yoludur, çünki bu yol və 12 kilometrlik tunel çəkiləndən sonra daha Murov aşırımından keçməyə ehtiyac qalmayacaq.

Hazırda dəmir yolu xətlərinin çəkilişi də uğurla davam etdirilir. 100 kilometr uzunluğu olan Horadiz-Ağbənd dəmir yolunun 60 kilometri artıq hazırdır.

Nəqliyyat infrastrukturu ilə bağlı digər vacib məsələ Zəngilan Beynəlxalq Hava Limanının istifadəyə verilməsidir. Dövlət başçısı dedi ki, hava limanının tikilib başa çatma prosesi bu il üçün nəzərdə tutulur. Bu, azad edilmiş torpaqlarda Füzulidən sonra ikinci beynəlxalq hava limanı olacaq. Laçın Beynəlxalq Hava Limanının inşası isə 2024-cü ilə planlaşdırılır.

### Zəngəzur üzərindən Azərbaycana keçid verilməsə...

Prezident İlham Əliyev ötən ay İranla Azərbaycan arasında körpülərin, dəmir yolu körpülərinin tikintisi ilə bağlı imzalanan memoranduma da toxunaraq dedi ki, həmin sənəddə elektrik xətlərinin çəkilişi ilə bağlı müddəa da var. Ona görə bu işlərə tezliklə start verilməlidir. Cəbrayıl yarımstansiyasından Zəngilana qədər xətlərin çəkilməsi və İran İslam Respublikası ilə son razılaşmaya gələndən sonra artıq İran üzərindən bu xətt gedə bilər.

Zəngəzur dəhlizinin tikintisini dəyərləndirən Prezident bildirdi ki, bu dəhliz açılmalıdır. Zəngəzur üzərindən həm dəmir yolu, həm avtomobil yolu məsələsi ilə bağlı aprelin 6-da Brüsseldə keçirilən üçtərəfli görüşdə geniş fikir mübadiləsi aparılıb. Artıq Ermənistan bu planları əngəlləyə bilməz. Əgər Zəngəzur üzərindən Azərbaycana keçid verilməsə, Ermənistanın özü itirəcək. İlk növbədə isə 10 noyabr bəyanatını pozmuş olacaq. Çünki 10 noyabr bəyanatında açıq-aşkar yazılıb ki, Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında əlaqə olmalıdır və bu, Ermənistanın öhdəliyidir: "Əgər o, öz öhdəliyini yerinə yetirmək istəmirsə, onda biz də hər hansı bir öhdəliyin yerinə yetirilməsi ilə bağlı heç bir məsuliyyət daşımayacağıq. Onlar bunu bilməlidirlər, vaxtı uzatmamalıdırlar. Onsuz da biz istədiyimizə gec-tez nail olacağıq. Daha yaxşı olar ki, onlar özləri də bir az cəld tərpənsinlər. Yoxsa yenə də dalan kimi qalacaqlar".

Dövlət başçısı digər bir layihə barədə də məlumat verərək bildirdi ki, İran üzərindən yolun Naxçıvana çəkilməsi və oradan dünya bazarlarına çıxarılması layihəsi artıq hazırlanır. Yaxın gələcəkdə təməlqoyma mərasimi də keçirilə bilər və beləliklə, yeni beynəlxalq nəqliyyat dəhlizinin açılması tarixi hadisə olar.

### Yeni su anbarları yaradılacaq, bolsulu çaylar suvarmanı gücləndirəcək

İşğaldan azad edilmiş ərazilərdə suvarma ilə bağlı layihələrin icrasına da diqqət çəkən Prezident qeyd etdi ki, bu il yeni layihələrin reallaşması nəzərdə tutulur. Bu layihələrin xüsusiyyəti ondan ibarətdir ki, hazırlıq işləri çox vaxt aparır. Çünki layihələndirmə işləri düzgün aparılmalıdır, yerlər düzgün seçilməlidir. Suvarma işləri həm azad edilmiş torpaqlar üçün, həm də bütün ölkə üçün ərzaq təhlükəsizliyini şərtləndirən əsas amillərdən biri olacaq.

Xatırladaq ki, işğal dövründə ermənilər bizi Həkəri, Bazarçay (Bərgüşad), Lev çay, Zabux, Tutqun, Turqay, Bəsitçay, Qarqarçay, Quruçay, Köndələnçay, Oxçuçaydan məhrum etmişdilər.

İşğal altında qalan su anbarları da yenidən qurulur. Belə ki, 1 milyard 600 milyon kubmetr su ehtiyatı olan ən böyük su anbarı "Xudafərin", həmçinin "Qız qalası", Suqovuşan, Xaçın, Köndələnçay-1, Köndələnçay-2, Aşağı Köndələnçay, Ağdamkənd su anbarları işğal altında idilər. İndi Azərbaycan onları bərpa edərək istifadəyə yararlı hala gətirir.

Qarşıdakı dövrdə bu sahədə böyük işlər görüləcək. Həkəriçay və Suqovuşan su anbarlarının tikintisi nəzərdə tutulur. Həmçinin uzunluğu 5,2 kilometr olan kanal da inşa ediləcək. Tikilib başa çatdıqdan sonra Suqovuşandan daha böyük əraziyə suyun verilməsi mümkün olacaq. Xaçınçay su anbarının və 7 kilometr uzunluğunda kanalın təmiri də layihələndirilir. Həmçinin Aşağı Köndələnçay, Köndələnçay-1 və Köndələnçay-2 su anbarlarının təmiri nəzərdə tutulur. Tərtərçay sol sahil kanalının, Ağdam, Füzuli və Cəbrayıl rayonlarının su təsərrüfatı kompleksinin yenidən qurulması, o cümlədən su mənbələrinin müəyyən edilməsi gündəmdədir. Çünki sovet vaxtında olan su mənbələri bəzi səbəblərə görə uyğun olmaya bilər. Ona görə də bu kompleks tədbirlər nəzərdə tutulur və Bərgüşad su anbarının layihəsinin hazırlanması bu il öz həllini tapmalıdır.

Prezident onu da bildirdi ki, bu yaxınlarda verilən yeni təklif əsasında Zəngilanda, ya da Qubadlıda yeni su anbarının tikintisi nəzərdə tutulur və bu kanalların inşası bizə imkan verəcək ki, yaxın zamanlarda 10 min hektarı suvarma ilə təmin edək. Yenə də demək istəyirəm ki, bütün bu işlər ümumi su təsərrüfatı sistemimizə inteqrasiya edilməlidir.

### Böyük qayıdış başlayır - bu il Ağalı kəndinin açılışı olacaq

Ən mühüm məsələ isə bu il Böyük qayıdış planının reallığa çevrilməsidir. Prezident bunun da müjdəsini verərək vurğuladı ki, Zəngilanın Ağalı kəndinin sakinləri bu il Ağalıda yerləşəcəklər, orada yaşayacaqlar. Yəni bu il Ağalı kəndinin açılışı olacaq.

Qeyd edək ki, bu, birinci pilot layihədir. Füzulinin Dövlətyarlı kəndinin yaradılmasına isə bu il başlanacaq. Bu, bir neçə kəndi birləşdirən layihədir. Ağalı kəndindən daha böyük yaşayış yeri olacaq. Azad edilmiş digər rayonlarda kəndlərin yenidən qurulması layihələri hazırlanır və şəhərlərlə paralel olaraq kəndlər də bərpa ediləcək.

Sosial-iqtisadi infrastruktur layihələri barədə də danışan dövlət başçısı İlham Əliyev dedi ki, bu il üç məktəbin - Ağdamda 1 nömrəli, Cəbrayılda və Şuşada iki orta təhsil ocağının inşası başa çatmalıdır. Hər üç məktəb 960 yerlikdir.

Dörd xəstəxana inşa edilir. Şuşa şəhərində xəstəxana bu il istismara veriləcək, Ağdamda 210, Füzulidə 180 çarpayılıq xəstəxanaların inşasına start verilib. Cəbrayılda isə yaxın gələcəkdə xəstəxananın təməli qoyulacaq. Ağdam və Cəbrayıl rayonlarında iki sənaye parkına isə sahibkarlar böyük maraq göstərirlər.

Beləliklə, dövlət keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıtması üçün kompleks tədbirlər görür. Yaşayış binaları, infrastruktur, iş yerləri, kənd təsərrüfatı ilə məşğul olmaq imkanları, sənaye parkları planlı şəkildə reallaşır.

İlham Əliyev qətiyyətlə vurğuladı ki, Azərbaycan öz qüdrəti hesabına tezliklə bütün layihələri reallaşdıracaq və istəyinə nail olacaq: "Əminəm ki, bütün planlar həyatda öz əksini tapacaq. Biz istədiyimizə nail olacağıq... Mən demişəm, Qarabağı da, Zəngəzuru da nümunəvi bir bölgə kimi quracağıq. Azərbaycan vətəndaşları orada rahat, firavan yaşayacaqlar. Dünya üçün də bir nümunə olacaq".

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***
















## Ordu quruculuğunda yeni mərhələ başlayıb

### Böyük zəfərdən sonra da Azərbaycan Silahlı Qüvvələrinin döyüş imkanlarının yüksəldilməsi prioritet olaraq qalır

Azərbaycanda ordu quruculuğu, qoşunların döyüş hazırlığının yüksəldilməsi həmişə prioritet məsələlərdən biri olub. Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan ordu quruculuğu Prezident İlham Əliyev tərəfindən sürətlə davam etdirilib, qoşunların döyüş hazırlığı ən müasir hərbi çağırışlar səviyyəsinə çatdırılıb.

Çünki Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxladığı bir vaxtda qarşıda dayanan əsas vəzifələrdən biri ordumuzun gücləndirilməsi, döyüş qabiliyyətinin daimi olaraq artırılması, modernləşməsi, ən son hərbi texnologiyalara yiyələnməsi idi. Bu baxımdan 2020-ci ilin Vətən müharibəsində qazanılan möhtəşəm hərbi zəfər İlham Əliyevin nə qədər müdrik lider olduğunu göstərdi.

### Ən müasir hərbi texnikalar və silahlar arsenala daxil edilir

Vətən müharibəsində Azərbaycan Ordusu döyüş meydanında böyük rəşadət və şücaət nümayiş etdirdi, dünyanın hərb tarixində yeni nümunələr yaratdı. Hansı ki, hətta güclü hərbi imkanlara malik olan dövlətlər belə Azərbaycan Ordusunun 44 günlük savaşda yaratdığı döyüş təcrübəsinə böyük maraq göstərirlər. Silahlı Qüvvələrimizin kompleks inkişafı və modernləşdirilməsi ilə bağlı Ali Baş Komandan İlham Əliyevin xüsusi diqqəti altında həyata keçirilən hərbi strategiya və taktikasının səmərəliliyi döyüş meydanında əhəmiyyətli nəticəni verdi.

Azərbaycan 2020-ci ildə aparılan 44 günlük Vətən müharibəsindən sonra da ordu quruculuğu, qoşunların döyüş hazırlığının daha da artırılması prosesini dayandırmayıb. Postmüharibə ili olan 2021-ci ildə ordunun döyüş imkanlarının artırılması istiqamətində islahatlar davam etdirilib. Hərbi quruculuq, bütün qoşun növlərinin texnika və silah-sursatla təchizatının modernləşdirilməsi, hərbçilərin xidmət şəraitinin yaxşılaşdırılması üçün hərbi sahəyə ayrılan maliyyə vəsaitləri artırılıb. Müharibədən sonra imzalanmış yeni müqavilələr əsasında Azərbaycana ən müasir hərbi texnikalar, silahlar gətirilib. Ötən ildən etibarən Azərbaycan Ordusu üçün yenilik olan Komando briqadalarının yaradılmasına başlanılıb. Yüksək döyüş hazırlığına malik bu hərbi hissələrin şəxsi heyəti istənilən hərbi vəzifəni icra etməyə qadirdir. Yeni Komando birliklərinin yaradılması ordumuzun gücünü böyük dərəcədə artırıb.

O cümlədən qoşunların yüksək döyüş hazırlığını təmin etmək məqsədilə hərbi təlimlərin keçirilməsi də davamlı şəkil alıb. Əməliyyat-taktiki təlimlər göstərir ki, döyüş qabiliyyətinin gücləndirilməsi, şəxsi heyətin döyüş vərdişlərinin yüksəldilməsi hər zaman prioritet olaraq qalır.

### Nə qədər lazımdırsa, vəsait ayrılacaq

Təbii ki, müharibə böyük təcrübə oldu. Bu gün ordumuzun döyüş qabiliyyətinin artırılması ilə bağlı həyata keçirilən tədbirlərdə bu amilin böyük rolu var. Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən 2022-ci ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə bu barədə söz açıldı. Prezident, Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, müharibənin 44 gününün hər günü dərindən təhlil edildi: "Bu təhlil bizə imkan verdi ki, biz gələcək ordu quruculuğumuzu real vəziyyətə əsaslanaraq quraq. Bunu nəzərə alaraq yeni silahların, texnikaların alınması da təşkil edilir. Bununla bərabər, müharibədən sonra Müdafiə Nazirliyində struktur islahatları aparılmışdır, struktur dəyişikliyi edilmişdir və bu, ordumuzu daha da gücləndirəcək, daha da müasirləşdirəcək. Müharibədən sonra yeni qoşun növü - Komando növü yaradılmışdır və Hadrutda birinci Komando hərbi bazasının açılışında mən şəxsən iştirak etmişəm. Bu, çox güclü bir qoşun növüdür. Əminəm ki, hazırda artıq bu qoşun növü istənilən vəzifəni icra edə bilər".

Prezident İlham Əliyev ordu quruculuğu ilə bağlı bəzi məsələləri də ictimaiyyətə açıqladı. Beləliklə, yeni mərhələdə komandoların sayı ildən-ilə artırılacaq, hazırlıqlı döyüşçülərin hazırlanması davam edəcək. O cümlədən İkinci Qarabağ müharibəsində xüsusi qəhrəmanlıq göstərmiş Xüsusi Təyinatlı Qüvvələrin şəxsi heyətinin də sayı artırılıb və yenə də artırılacaq. Hərbi məsələlərin həlli üçün nə qədər lazımdırsa, o qədər də vəsait ayrılacaq.

Vətən müharibəsindəki zəfərdən sonra ordumuzun döyüş qabiliyyəti daha da yüksəkdir. Azərbaycan Ordusunun daha da artan gücü həm də Ermənistandakı revanşistlərə xəbərdarlıqdır. Bundan nəticə çıxarmaq istəməyənlər mütləq "dəmir yumruğ"un zərbəsini hiss edəcəklər.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Şeyxülislam Allahşükür Paşazadə İstanbulda Ayasofya Fatih Mədrəsəsinin açılış mərasimində iştirak edib

Aprelin 15-də İstanbulda Ayasofya Fatih Mədrəsəsinin açılışı olub.





AZƏRTAC xəbər verir ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə istifadəyə verilən binanın açılış mərasimində İstanbulda səfərdə olan Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə iştirak edib. Tədbirə, eyni zamanda, Türkiyənin Diyanət işləri sədri Ali Erbaş, Qazaxıstan, Özbəkistan, Qırğızıstanın dini nümayəndələri, eləcə də Türkiyənin dövlət rəsmiləri qatılıblar.

Açılış mərasimində çıxış edən Türkiyə Prezidenti 13 aylıq qısa bir zaman ərzində yenidən inşa edilən bu mədrəsənin açılışı ilə daha bir tarixi əsərin Türkiyəyə qazandırıldığını deyib.

Prezident Rəcəb Tayyib Ərdoğan son 20 il ərzində atılan addımlarla həm tarixi əsərlərə, həm də keçmişə sahib çıxdıqlarını bildirib. Sonra mədrəsənin rəsmi açılışı olub.

Mərasimdən əvvəl iştirakçılar Ayasofya məscidində cümə namazına qatılıblar.

Ayasofya məbədinin yanında yerləşən, vaxtilə keşiş otaqları adlanan bu bina ilk dəfə İstanbulun fəthindən sonra Fateh Sultan Mehmet tərəfindən mədrəsə olaraq açılıb. İkihəyətli mədrəsədə dövrün ən böyük alimləri dərs verib. Təhsil ocağı kimi 1924-cü ilə qədər istifadə edilən tikili 1936-cı ildə yararsız halda olduğu üçün sökülüb. Ayasofya Fatih Mədrəsəsi Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinin Vəqflər Baş İdarəsi tərəfindən tarixi arxitekturasına uyğun olaraq dövrün inşaat materiallarından istifadə edilərək yenidən inşa olunub. Yeni binada "Ayasofya", "Fatih Sultan Mehmet və Onun Dövrü", "İslam Tətbiqi Sənəti", "İslam Hüququ", "Əlyazmaların Tətbiqi" "Vəqf", "Övliya Çələbi" araşdırma mərkəzləri, eləcə də Vizual Ünsiyyət, Dizayn Tətbiq və Tədqiqat Mərkəzi fəaliyyət göstərəcək. Qeyd edək ki, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadənin rəhbərlik etdiyi nümayəndə heyəti aprelin 15-də İstanbulda keçiriləcək Türk Dövlətləri Təşkilatına üzv ölkələrin Dini Liderləri Şurasının ilk - təsis toplantısında iştirak etmək üçün İstanbulda səfərdədir.

# İstanbulda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin Dini Liderləri Şurasının ilk toplantısı keçirilib

Aprelin 15-də İstanbulda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin Dini Liderləri Şurasının ilk - təsis toplantısı keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbirdə ölkəmiz Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadənin rəhbərlik etdiyi nümayəndə heyəti ilə təmsil olunub.

Toplantı Türkiyə Respublikasının Diyanət İşləri Başqanlığının dəvəti, Türk Dövlətləri Təşkilatının Baş katibi Bağdad Amreyevin rəhbərliyi ilə baş tutub.

Mərasim "Qurani-Kərim" ayəsinin oxunması ilə başlayıb.

Sonra Türkiyə Respublikasının Diyanət İşləri Başqanlığının fəaliyyətlərini özündə əks etdirən videoçarx nümayiş olunub.

Qonaqları salamlayan Türkiyə Diyanət işləri rəhbəri Ali Erbaş Türk Dövlətləri Təşkilatının təsisinin bu quruma üzv ölkələr, eləcə də türk dünyası üçün əhəmiyyətindən danışıb. Hazırda bütün dünyanın çətin sınaqlardan keçdiyini bildirən A.Erbaş bu kimi tədbirlərin keçirilməsində əsas məqsədin bütün müsəlmanları bir amal altında birləşdirmək olduğunu deyib.

Türk Dövlətləri Təşkilatı Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım Ramazan ayı münasibətilə iştirakçıları təbrik edib, toplantının təşkilində əməyi keçənlərə minnətdarlığını bildirib. Təşkilatın adının dəyişdirilərək yenidən təsis edilməsinin əhəmiyyətini vurğulayan B.Yıldırım təşkilat tərəfindən keçirilən tədbirlərin əsas məqsədinin bütün türk dünyasının birliyi, sülh və əmin-amanlıq içində yaşamasına töhfə vermək olduğunu bildirib. Qeyd edilib ki, hazırda yaşadığımız, xüsusilə islamofobiya, terror kimi hadisələrin daha qabarıq şəkildə meydana çıxdığı bu çətin dövrdə ortaq fikrə ehtiyac var.

Türk Dövlətləri Təşkilatının Baş katibi Bağdad Amreyev qurumun üzv ölkələr arasında hər sahə üzrə sıx əməkdaşlıq etdiyini bildirərək bu toplantının din sahəsi üzrə də ortaq fikirlərlə seçiləcəyinə əminliyini vurğulayıb. Qardaş ölkələr arasındakı bu əməkdaşlıqların liderlərin düzgün siyasəti nəticəsində hər il daha da irəlilədiyini deyən B.Amreyev İstanbulda keçirilən Liderlər Zirvəsi ilə türk dünyasının gələcəkdə əməkdaşlıq sahəsinin müəyyən olunduğunu deyib.

Toplantıda Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov, Qazaxıstan Müsəlmanları İdarəsinin sədri Müfti Naurızbay Taqanulı, Özbəkistan Müsəlmanları İdarəsinin sədri Müfti Nuriddin Xoliknəzərov və Qırğızıstan nümayəndəsi iştirak ediblər.

Mərasimdə Şeyxülislam Allahşükür Paşazadə şuranın təqdimatı ilə çıxış edib.

# Minsk qrupu heç kimə lazım deyil

## Artıq həmsədr dövlətlər də bu missiyanın öz əhəmiyyətini itirdiyini qəbul edirlər

ATƏT-in Minsk qrupu öz fəaliyyətində beynəlxalq hüquqa əsaslanırdı. Lakin bu missiya heç vaxt öz mandatına uyğun fəaliyyət göstərə, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə nail ola bilmədi.

Minsk qrupunun həll etməli olduğu problemi isə 2020-ci ilin Vətən müharibəsində Azərbaycan hərbi yolla həll etdi.

Vətən müharibəsi günlərində də Minsk qrupunun həmsədrləri 28 ildə səsləndirdikləri kimi problemin sülh yolu ilə həllinin vacibliyini önə çəkirdilər. Hansı ki, o sülhü onlar heç vaxt təmin edə bilmədilər. Baxmayaraq ki, bunun üçün kifayət qədər aydın və konkret əsaslar var idi. Bu sülhün əldə edilməsinin yolları beynəlxalq hüquqla dəqiq təsbit olunmuşdu. Elə buna görə də hələ 2020-ci ilin dekabrında Minsk qrupunun Fransadan və ABŞ-dan olan həmsədrlərini qəbul edən Prezident İlham Əliyev Minsk qrupunun 28 il ərzində problemin həllində heç bir rol oynamadığını birbaşa onların özlərinin diqqətinə çatdırmışdı.

Cari ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə Prezident İlham Əliyev bir daha bu mövzuda danışaraq deyib: "Biz bu münaqişəni özümüz həll etdik. Minsk qrupu İkinci Qarabağ müharibəsinə qədər 28 il fəaliyyətdə idi və həmsədr ölkələr bu illər ərzində Azərbaycana, Ermənistana bəlkə də yüzlərlə səfər etmişlər. Nəticə də göz qabağındadır, nəticə sıfır. Bunun səbəbləri də Azərbaycan ictimaiyyətinə məlumdur. Bu haqda çox danışmaq istəməzdim. Nəticə göz qabağındadır və bir daha demək istəyirəm ki, nəticə sıfır və Azərbaycan bu münaqişəni özü həll edib. Hərbi-siyasi yollarla həll edib".

Bir neçə gün əvvəl isə Rusiya tərəfi xatırladıb ki, Vaşinqton və Paris ATƏT-in Minsk qrupu həmsədrlərinin "üçlüyü" çərçivəsində Moskva ilə bütün əlaqələri dayandırıblar. Bu barədə danışan Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib ki, xüsusi tapşırıqlar üzrə səfir İqor Xovayev yeni qisimdə - məhz Rusiya Federasiyası xarici işlər nazirinin Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında münasibətlərin normallaşdırılmasına kömək məsələləri üzrə xüsusi nümayəndəsi kimi öz işini davam etdirəcək.

Rusiyanın xüsusi tapşırıqlar üzrə səfiri İqor Xovayevin Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmasının təşviqi üzrə xüsusi nümayəndəsi vəzifəsinə təyin edilməsi Kremlin Minsk qrupu formatından uzaqlaşaraq xüsusi nümayəndəlik institutuna üstünlük verdiyini göstərir. Xüsusi nümayəndəlik institutu isə sırf Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması məsələsi ilə məşğul olacaq.

Digər tərəfdən, bu yaxınlarda İrəvana səfər etmiş ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Bris Rokfeylinin də regiona tamam başqa statusla gəlməsi artıq Minsk qrupunun keçmişdə qaldığını göstərir. Ermənistan rəsmiləri və KİV-i onu Minsk qrupunun həmsədri kimi təqdim etsələr də, Rokfeylin İrəvana həmsədr kimi yox, Fransa Xarici İşlər Nazirliyinin Şərq Tərəfdaşlığı Proqramı üzrə nümayəndəsi kimi səfər etdiyi məlum olub.

Artıq üçtərəfli görüşlərdə, qəbul olunan bəyanatlarda Minsk qrupunun adı belə çəkilmir. Beləliklə, Minsk qrupu artıq proseslərdən kənardadır. Bütün bunlar isə Azərbaycan Prezidenti İlham Əliyevin Minsk qrupunun artıq mandatının de-fakto etibarsız olduğu haqda fikrini bir daha təsdiq edir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***



# Həmrəyliyə sadiqliyin təcəssümü

## Azərbaycan Ukraynaya növbəti dəfə humanitar yardım göndərdi

Avrasiya geosiyasi arealında öz sözü və mövqeyi olan ölkə kimi beynəlxalq nüfuzunu daim artıran Azərbaycan bu gün bölgənin ən fəal siyasi aktoruna çevrilib. Tarixi reallıqlar sübut edir ki, Azərbaycan qısa müddətdə qüdrətli, dünya miqyasında etibarlı tərəfdaş olan dövlətə çevrilib. Bunu şərtləndirən yeganə amil isə Prezident İlham Əliyevin yürütdüyü tam müstəqil siyasətdir.

Ümumiyyətlə, demokratik tərəqqi yolunu seçən Azərbaycan qonşu olan və olmayan digər dövlətlərlə müxtəlif sahələrdə həm ikitərəfli, həm də çoxtərəfli əsasda qarşılıqlı əlaqələrin genişləndirilməsinə xüsusi önəm verir. Dövlət başçısının milli mənafelərin qorunmasına xidmət edən xarici siyasət kursunun məqsədyönlü şəkildə davam etdirilməsi beynəlxalq əlaqələrin düzgün qurulmasına imkan yaradır. Bu gün BMT-dən sonra dünyanın ikinci ən böyük təşkilatı olan Qoşulmama Hərəkatına sədrlik edən Azərbaycan Prezidenti həm də qlobal miqyaslı təşəbbüsləri ilə diqqətləri cəlb edir. Prezident İlham Əliyevin irəli sürdüyü təkliflər əsasında keçirilən həmrəylik tədbirləri, yardım kampaniyaları böyük dövlətlər, beynəlxalq təşkilatlar tərəfindən daim təqdir edilir.

Bu, bir həqiqətdir ki, Azərbaycan özü də çətin, ağır illər keçirib, xalqımız soyqırımlara məruz qalıb, yurdundan, elindən didərgin düşən soydaşlarımız qaçqın-köçkün vəziyyətində yaşayıblar. Dövlət öz vətəndaşlarına sahib çıxaraq onların sosial müdafiəsini təmin edib. Bu çətin günlər ötən əsrin 90-cı illərinin əvvəlinə, Azərbaycanın dövlət müstəqilliyinin yenicə bərpa olunduğu illərə təsadüf edirdi. İqtisadi imkanları o qədər də güclü olmayan dövlətin humanitar yardımlara ehtiyacı qaçılmaz idi. Bu günlərdən keçən ölkə indi özü humanitar yardım edən dövlətə çevrilib.

Son illər Pakistan, Yaponiya, Somali və başqa ölkələrə birbaşa humanitar yardımlar göstərən Azərbaycanın atdığı addımlar beynəlxalq təşkilatlar tərəfindən böyük xeyirxahlıq kimi dəyərləndirilir.

Bunun digər nümunəsinə aprelin 15-də şahidlik etdik. Ukraynada yaşanan böhran nəticəsində Moldova Respublikası ərazisinə keçmiş ukraynalı məcburi köçkünlərin ehtiyaclarının qarşılanması məqsədilə Azərbaycan dövləti tərəfindən təcili və təxirəsalınmaz hallarda tibbi yardımın göstərilməsi üçün dərman vasitələrindən ibarət humanitar yardım yola salındı. Göndərilən 29 tonluq humanitar yardımın məbləği 1,7 milyon manatdan çoxdur.

Xatırladaq ki, Ukraynadakı vəziyyətlə əlaqədar ölkə rəhbərliyinin tapşırığı ilə bu il fevralın 27-də və martın 12-də Azərbaycan tərəfindən Ukraynaya dərman vasitələrindən, tibbi sərf, cihaz və avadanlıqlardan, eləcə də ərzaq məhsullarından ibarət ümumi məbləği 21,5 milyon manat olan 520 tona yaxın humanitar yardım göndərilib.

Xatırladaq ki, qlobal pandemiya ilə mübarizə dövründə ölkəmiz beynəlxalq arenada, iqtisadi, sosial sahədə özünü güclü dövlət kimi göstərdi. Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının, Qoşulmama Hərəkatının Zirvə görüşlərini təşkil etməklə dünyanı birləşdirdi. Zirvə görüşləri uğurlu oldu, qəbul edilmiş sənədlərdə Azərbaycanın təşəbbüsü və bu sahədə oynadığı rol, həmrəyliyə hesablanmış addımları yüksək qiymətləndirildi. Ümumiyyətlə, Azərbaycan koronavirusla mübarizəni dəstəkləmək məqsədilə 80-nə yaxın ölkəyə birbaşa və Ümumdünya Səhiyyə Təşkilatının xətti ilə maliyyə, humanitar yardımı edib. Azərbaycanın koronavirusa qarşı ümumbəşəri mübarizəyə ciddi maddi və mənəvi dəstək verməsi, bütövlükdə bu prosesə qoşulmaqla ortaya uğurlu nəticələr qoyması təsdiq edir ki, Prezident İlham Əliyevin səyləri təkcə rəhbəri olduğu xalqın deyil, həm də bütün bəşəriyyətin xilasına yönəlib. Azərbaycanın Qoşulmama Hərəkatı adından təqdim etdiyi sənədin BMT-də qəbulu göstərir ki, ölkəmizin "peyvənd millətçiliyi" ilə bağlı ədalətli, insanpərvər və sivil yanaşması beynəlxalq səviyyədə yetərincə dəstəklənir və haqlı hesab edilir. Qəbul edilmiş qətnamə fonunda dünyada bir reallıq da təsdiqini tapır ki, vaksin ədalətsizliyinə son qoyulmasa, koronavirus infeksiyasına yaxın perspektivdə qalib gəlmək mümkün olmayacaq.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Şeyxülislam Allahşükür Paşazadə TDT-yə üzv ölkələrin dini liderlərinin növbəti toplantısının Azərbaycanda keçirilməsini təklif edib

*"Sülhə, ədalətə, mənəvi-əxlaqi yüksəlişə xidmət edən müqəddəs dinimiz İslamın məram və amallarını dünya çapında ali səviyyədə təmsil edən Türkiyə dövləti ənənəvi olaraq möhtəşəm tədbir və toplantılara evsahibliyi edir. İstanbulda keçirilən bu tədbiri şübhəsiz ki, gələcək nəsillər tarixi əhəmiyyətli tədbir kimi dəyərləndirəcək, yüz milyonlarla türkün mənəvi birliyinin təşkilatlandığı gün kimi tarixdə qalacaq".*



AZƏRTAC xəbər verir ki, bu fikirləri Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə aprelin 15-də İstanbulda keçirilən Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin Dini Liderləri Şurasının ilk - təsis toplantısında çıxışı zamanı ifadə edib.

QMİ sədri xalqımızın və Prezident İlham Əliyevin salamlarını tədbir iştirakçılarına çatdırıb.

Türk dövlətlərinin dini liderlərinin ilk dəfə İstanbulda toplanaraq müasir problemləri birlikdə müzakirə etmək fürsətini yaratdığına görə Ali Erbaş və Bağdad Amreyevə bütün həmkarları adından minnətdarlığını ifadə edən QMİ sədri deyib: "Böhranlar və fəlakətlərlə səciyyələnən müasir dövrdə mənəvi birliyin önəmi danılmazdır. Bizim vəhdətimizi parçalamaq, dövlətlərimizi zəiflətmək məqsədini güdən bəzi qüvvə və dairələrin mənfur niyyətlərinin qarşısına sipər çəkməyin ən doğru yolu türk dövlətlərinin sarsılmaz birliyidir. Uca Allaha həmd olsun, qardaş dövlətlərimizin başçıları böyük müdriklik və siyasi uzaqgörənlik nümayiş etdirərək Türk Dövlətləri Təşkilatında bir araya gəldilər. Türk millətinin səadəti, türk toplumunun mənafeləri naminə türk dövlətlərinin siyasi birliyi türk dünyasının böyük zəfəri kimi dəyərləndirilə bilər. Bu birlik beynəlxalq aləmdə türk məfhumuna aid olan, Ana dili türk dili olan hər kəsin vəhdət məkanı və dayaq məqamıdır".

Bildirilib ki, 2009-cu ildə dövlət başçılarımızın qədim Azərbaycan torpağı Naxçıvanda baş tutmuş I Zirvə görüşü ilə başlanan tarixi yol 2021-ci ildə İstanbuldakı VIII Sammitində öz tarixi zirvəsinə yüksəlib. Qardaş Türkmənistanın müşahidəçi qismində təşkilata qoşulması ilə Türk Dövlətləri Təşkilatı öz adına uyğun şəkildə formalaşma mərhələsində daha bir addım irəli atmış oldu. Bu gün beynəlxalq qurum olaraq inkişaf edən Türk Dövlətləri Təşkilatı tarixi qərarlar qəbul edərək, türk dünyasının 2040-cı il vizyonunu qurur, türk mədəniyyətinin ortaq dəyərlərinin dünya çapında daha fəal tanıdılması istiqamətində böyük işlər aparır. Bu baxımdan, belə səylərin daha səmərəli şəkildə həyata keçirilməsi yönündə çox önəmli vəzifə mənəvi birliyimizin qorunması və inkişaf etdirilməsindən ibarətdir. Türk-İslam birliyinin yenilməzliyi, özəl gücü bizim ümumi mənəvi dəyərlər xəzinəmiz olan müqəddəs dinimiz İslam, onun buyurduqlarıdır.

"Müasir dünyada baş verən dəhşətli hadisələr dini liderlərin birləşərək sülh naminə birgə mövqedən çıxış etməsini labüd edir. Bu baxımdan, dünyada sülhün və əmin-amanlığın bərqərar olması üçün Türk-İslam fəlsəfəsinin və mədəniyyətinin potensialından istifadə etməklə onun dəyərlərini, o cümlədən tolerantlıq və multikulturalizm ənənələrini yaymaq bizim mənəvi borcumuzdur", - deyən QMİ sədri davam edib: "Qəlbən bir olan, Allahı, Quranı, qibləsi bir olan, eyni dildə danışan, ortaq mənəviyyata istinad edən qardaş xalqlarımızın dini-mənəvi müstəvidə birliyi beynəlxalq platformalarda yetkin, nüfuzlu qurum olaraq qəbul olunmağımızı təmin edəcəkdir, İnşallah! Qırx ildən artıq şeyxülislamlıq fəaliyyətimə istinadən bildirmək istəyirəm ki, türkdilli ölkələrin dini-mənəvi mühitinə xarici müdaxilələrin, yad və zərərli təbliğatların, bu ölkələrdə ayrı-seçkiliyə və ya vətəndaş qarşıdurmalarına səbəb ola biləcək hər hansı ideoloji təxribatların, o cümlədən məzhəb ayrı-seçkiliyi, təkfirçilik, dini və irqi dözümsüzlük ideyalarının və dindən siyasi məqsədlərlə sui-istifadə hallarının qarşısının alınmasında biz birgə səy göstərməliyik.

Buna görə də biz, Türk Dövlətləri Təşkilatının dini liderlərinin Şurasının yaradılması təşəbbüsü ilə çıxış etdik və həmd olsun Allaha, qardaşlarımızdan gözlənilən və bizi ruhlandıran müsbət əks-səda gəldi. Məramımız Türk-İslam həmrəyliyi ideyalarını tərənnüm etmək, türk dünyasının tarixi, mənəvi və mədəni irsinin qorunub-saxlanması sahəsində Türk Dövlətləri Təşkilatının verdiyi qərarların həyata keçirilməsinə yardım göstərməkdən ibarətdir. Eyni zamanda, Türk-İslam mənəvi-mədəni xəzinəsinin "Dədə Qorqud", "Manas" və digər bu kimi nadir nümunələrin, habelə Şeyx Nizami, İbn Sina, İmam Buxari və başqalarının irslərinin dünya mədəniyyətinə verdiyi töhfələri birgə təbliğ etmək bizim arzuladığımız məqamlardır".

Şuranın Nizamnamə mətninin layihəsini hazırlayaraq müzakirəyə çıxarıb, təşkilati məsələlərin həlli üçün Türk Dövlətləri Təşkilatına müraciət etdiklərini bildirən Qafqazın şeyxi bu məramla növbəti toplantının cari il sentyabrın sonu - oktyabrın əvvəllərində Azərbaycanda keçirməyi təklif edib, Türk Dövlətləri Təşkilatına üzv ölkələrin dini liderlərini Bakıya dəvət etməkdən şərəf duyduğunu bildirib.

Qeyd edilib ki, bu ilin noyabrında Özbəkistanda keçiriləcək Türk Dövlətləri Təşkilatı dövlət başçılarının Zirvə toplantısında TDT-nin Baş katibi və Təşkilatın katibliyinin yardımı ilə görüşlərin nəticələri, eləcə də təkliflər barədə dövlət başçılarına məlumatları təqdim edərək, Şuranın yaradılması və onun Nizamnaməsinin qəbuluna nail olmaq mümkündür.

Bildirilib ki, 2020-ci ildə 44 günlük Vətən müharibəsində xalqımız Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun rəşadəti sayəsində 30 illik işğala son qoyaraq öz ərazilərini azad etdi. İşğal dövründə Ermənistan Azərbaycana qarşı təkcə etnik təmizləmə, soyqırımı deyil, ölkəmizin Türk-İslam mədəni və mənəvi irsinə qarşı təcavüz siyasəti aparıb. Azərbaycanın Qarabağ torpaqlarında ümumislam əhəmiyyətli, türk mədəni-mənəvi irsinə aid abidələrə qarşı vandalizm aktları törədilib. Hazırda qalib Azərbaycan dövləti milli-mənəvi, Türk-İslam abidələrimizi bərpa edir, yenidənqurma işləri həyata keçirir. Dövlətimizin başçısının qətiyyətli siyasi iradəsi ilə yerləyeksan edilmiş şəhər və kəndlərimiz yenidən inşa olunur, ən müasir infrastruktur layihələri həyata keçirilir. 2023-cü il Şuşa şəhərinin "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi Şuşada yerləşən Türk-İslam mədəniyyətinə məxsus tarixi abidələrin dünyada tanıdılmasına öz töhfəsini verəcək.

Dünyada cərəyan edən hadisələrin hər birimizin narahatlığına səbəb olduğunu deyən Şeyxülislam Ukraynada yaşanan faciələri dünya nizamını pozan, bəşəri təhlükəsizliyə təhdid olan ağır hadisələr kimi qiymətləndirib. Bildirib ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə türk dünyasının, İslam aləminin qabaqcıl ölkəsinin Ukraynada qarşıdurmanın dayandırılması, sülh danışıqlarının təşkili yönündə ali vasitəçilik rolu, ardıcıl diplomatik səyləri, Uca Allaha xoş gedən barışdırıcı rolu təqdirəlayiqdir.

Qeyd edilib ki, TDT-yə üzv ölkələrin dini liderləri öz dövlət başçılarının xalqlarımıza, dövlətimizə səadət, təhlükəsizlik və rifah bəxş edən, ortaq maraq və mənafelərimizi təmin edən, dünya miqyasında sülh, istiqrar və tərəqqi missiyasını həyata keçirən müdrik siyasətlərinə dəstək verməli, dini-mənəvi müstəvidə zəruri fəaliyyətləri həyata keçirməlidirlər. Bu, Uca Allah qarşısında müqəddəs borcumuz və xalqlarımız qarşısında mühüm vəzifəmizdir.

Başda Türkiyə Prezidenti olmaqla, bütün qardaş türk dövlətlərinə və onların liderlərinə Azərbaycanın 44 günlük Vətən müharibəsi dövründə ölkəmizə verdikləri mənəvi dəstəyə, qardaş yardımına görə dərin minnətdarlığını ifadə edən QMİ sədri türk dövlətlərinin birliyinin təntənəsi kimi bu dəstək nümunəsinin ortaq tariximizin şərəf səhifəsinə həkk olunduğunu vurğulayıb, Türkiyə-Azərbaycan qardaşlığının zirvəsi sayılan Şuşa Bəyannaməsinin türk dünyasının qürur məqamı, Türk-İslam aləminin əzəmətinin bəyanı olduğunu deyib.

Xatırladaq ki, toplantıda Türk Dövlətləri Təşkilatı Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım, Türkiyə Diyanət işləri rəhbəri Ali Erbaş, Türk Dövlətləri Təşkilatının Baş katibi Bağdad Amreyev, Qazaxıstan Müsəlmanları İdarəsinin sədri müfti Naurızbay Taqanulı, Özbəkistan Müsəlmanları İdarəsinin sədri müfti Nuriddin Xoliknəzərov və Qırğızıstan nümayəndəsi iştirak ediblər.

# Səhv hesablandığı halda elektrik enerjisinə görə ödəniş qaydası dəyişib

Elektrik enerjisindən istifadəyə görə hesablaşmalar qaydası dəyişib.

AZƏRTAC xəbər verir ki, Nazirlər Kabineti bununla bağlı "Elektrik enerjisindən istifadə Qaydaları"na müvafiq dəyişiklik edib. Qaydaya əsasən, ödəmə sənədində səhv və ya sayğacların göstərişlərində anlaşılmazlıq aşkar olunarsa, istehlakçı, o cümlədən məişət abonenti bu barədə enerji təchizatı müəssisəsinə yazılı məlumat verməlidir. İstehlakçı, o cümlədən məişət abonenti yazılı məlumat verdikdən sonra enerji təchizatı müəssisəsi on gündən gec olmayaraq hesablaşmanı, lazım gələrsə, sayğacı yoxlamalı və bu yoxlamanın nəticələri haqqında ona məlumat verməlidir. Əgər sayğac göstəricilərinin xətası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin müəyyən etdiyi normalardan artıq deyilsə, onda bu xəta normal sayılır və yenidən hesablaşma aparılması tələb olunmur.

İndiyə qədər sayğacın yoxlanılması və ya ödəmə sənədindəki səhv haqqında istehlakçının, o cümlədən məişət abonentinin məlumat verməsi, onu təqdim olunan ödəmə sənədi üzrə müəyyən olunmuş müddətdə ödənişdən azad etmirdi. Elektrik enerjisinin uçotunda səhv aşkar edildikdə, enerji təchizatı müəssisəsi Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş iddia müddətindən kənara çıxmamaq şərti ilə elektrik sayğaclarının sonuncu dəfə əvəz olunması və ya qoşulma sxeminin yoxlanılması müddətindən sonrakı dövr üçün yenidən hesablaşma aparmalı idi. Eyni zamanda, əgər yoxlamanın nəticələrinə görə yenidən hesablaşma aparmaq tələb olunarsa, onda növbəti dövr üçün ödəniş sənədləri yazıldıqda yenidən hesablaşma aparılırdı.

Dəyişikliyə əsasən, artıq bu prosedur ləğv olunur. Bundan sonra əgər yoxlamanın nəticələrinə görə yenidən hesablaşma aparmaq tələb olunarsa, onda növbəti dövr üçün ödəniş sənədləri yazıldıqda, elektrik sayğaclarına onların qoşulma sxeminin işlək və toxunulmaz vəziyyətdə olmasını müəyyən etmək məqsədilə keçirilmiş sonuncu baxış tarixindən üç aydan çox olmayan müddətdə yenidən hesablaşma aparılacaq.

İndiyə qədər istehlakçının (məişət abonenti istisna olmaqla) təqsirindən hesablaşma uçot cihazları zədələndikdə (plomb qoparıldıqda, baxış şüşəsi sındırıldıqda və s.), uçot cihazlarının qoşulma sxemləri pozulduqda, uçot cihazlarından kənar özbaşına yük qoşulduqda enerjitəchizat müəssisəsi onu elektrik şəbəkəsindən açmalı, elektrikqəbuledicilərinin qoyulmuş gücü və hesablaşma elektrik sayğaclarının sonuncu dəfə əvəz olunması və ya qoşulma sxeminin yoxlanması tarixindən istehlakçının (məişət abonenti istisna olmaqla) işləmə saatlarına görə Mülki Məcəllədə nəzərdə tutulmuş iddia müddəti daxilində yenidən hesablaşma aparılmalı idi. Yenidən hesablaşmaya görə əlavə ödənişin verilməsi istehlakçıya aşkar edilmiş pozuntu aradan qaldırılmadan təkrarən elektrik şəbəkəsinə qoşulmaq hüququ vermirdi.

Dəyişikliyə əsasən, artıq istehlakçı (o cümlədən məişət abonenti) tərəfindən elektrik enerjisinin talanması məqsədilə hesablaşma elektrik sayğacları zədələndikdə (plomb qoparıldıqda, baxış şüşəsi sındırıldıqda, gövdəsi zədələndikdə və sayğaca vizual baxış nəticəsində qüsurun müəyyən edilməsi mümkün olan digər hallarda), sayğacların qoşulma sxemləri pozulduqda, enerji təchizat müəssisəsi tərəfindən bu qaydalar nəzərə alınmaqla, pozuntu aradan qaldırılmalı və elektrik sayğaclarına və onların qoşulma sxeminin işlək və toxunulmaz vəziyyətdə olmasını müəyyən etmək məqsədilə keçirilmiş sonuncu baxış tarixindən üç aydan çox olmayan müddətdə istifadə edilmiş elektrik enerjisinin dəyəri elektrik qəbuledicilərinin gücü məişət abonentlərinə münasibətdə sutkanın 24 saatı, digər istehlakçılara münasibətdə isə onların işləmə saatı nəzərə alınmaqla yenidən hesablanmalıdır.

İstehlakçı (o cümlədən məişət abonenti) hesablaşma elektrik sayğacından kənar elektrik xətti vasitəsilə elektrik şəbəkəsinə qanunsuz qoşulduqda, enerji təchizat müəssisəsi tərəfindən qanunsuz elektrik xətti açılmalı və elektrik şəbəkəsinə qoşulmaqla, elektrik enerjisinin talanması hallarının qarşısının alınması məqsədilə paylayıcı qurğulara keçirilmiş sonuncu baxış tarixindən on iki aydan çox olmayan müddətdə istifadə edilmiş elektrik enerjisinin dəyəri sayğacdan kənar çəkilmiş elektrik naqilinin en kəsiyindən buraxıla bilən maksimum cərəyan, gərginlik və məişət abonentlərinə münasibətdə sutkanın 24 saatı, digər istehlakçılara münasibətdə isə onların işləmə saatı nəzərə alınmaqla yenidən hesablanmalıdır. İstehlakçı (o cümlədən məişət abonenti) hesablaşma elektrik sayğacını xüsusi qurğu vasitəsilə sxemdən kənarlaşdırdıqda, enerji təchizat müəssisəsi tərəfindən bu qaydalar nəzərə alınmaqla pozuntu aradan qaldırılmalı, on iki aydan çox olmayan müddətdə istifadə edilmiş elektrik enerjisinin dəyəri elektrik qəbuledicilərinin gücü məişət abonentlərinə münasibətdə sutkanın 24 saatı, digər istehlakçılara münasibətdə isə onların işləmə saatı nəzərə alınmaqla yenidən hesablanmalıdır.

Enerji təchizatı müəssisəsinin nümayəndəsi tərtib etdiyi akta vurulmuş zərərin hesablanmış məbləği barədə ilkin məlumatı əlavə etməlidir. Akt enerji təchizatı müəssisəsinin nümayəndəsi və istehlakçı tərəfindən imzalanmalıdır. İstehlakçı aktı imzalamaqdan imtina etdikdə, bu barədə aktda müvafiq qeyd aparılır və yol verilmiş pozuntu texniki vasitələrlə (foto və ya videoçəkiliş aparılmaqla) qeydə alınmalıdır. İstehlakçı izahatlar və aktın məzmunu barəsində öz mülahizələrini təqdim etmək, habelə aktı imzalamaqdan imtina etməsinin səbəblərini göstərmək hüququna malik olacaq, bu izahatlar və mülahizələr akta əlavə olunacaq.

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən aprelin 15-də ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Kürdəmir şəhərində yerləşən Heydər Əliyev Mərkəzində vətəndaşları qəbul edib.

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qəbuldan əvvəl nazir və Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı Elxan İbrahimov Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri qoyub, dahi şəxsiyyətin əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Görüş zamanı ətraf mühitin mühafizəsi, meşələrin qorunması və digər məsələlərlə bağlı vətəndaşların müraciət və təklifləri dinlənilib. Qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, digərlərinin isə qısa müddətdə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə nazirliyin məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

* * *

Mədəniyyət naziri Anar Kərimov aprelin 15-də Xaçmaz və Şabran sakinləri ilə görüşüb. AZƏRTAC xəbər verir ki, qəbuldan əvvəl mədəniyyət naziri Anar Kərimov və Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Elnur Rzayev Ümummilli Lider Heydər Əliyevin Xaçmaz şəhərindəki abidəsini ziyarət edərək önünə tər çiçəklər qoyublar.

Daha sonra Xaçmaz Tarix-Diyarşünaslıq Muzeyində mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev və nazirliyin məsul əməkdaşlarının da iştirakı ilə vətəndaşların qəbulu keçirilib.

Qəbulda nazir Anar Kərimov Xaçmaz və Şabran sakinlərinin müraciətlərini, ayrı-ayrı məsələlərə dair xahiş və təkliflərini dinləyib. Vətəndaşların müraciətləri əsasən əməyin qiymətləndirilməsi, işlə təmin olunma, iş yerinin dəyişdirilməsi və digər məsələlərlə bağlı olub.

Nazir müraciətlərdə qaldırılan məsələlərin operativ şəkildə araşdırılması və qanunvericiliyə uyğun həlli ilə bağlı müvafiq tapşırıqlar verib.

* * *

Aprelin 15-də Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev İsmayıllı və Ağsudan olan vətəndaşları qəbul edib.

Komitənin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qəbuldan əvvəl Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstəsi qoyularaq xatirəsi ehtiramla yad edilib.

İsmayıllı şəhərindəki Heydər Əliyev Mərkəzində keçirilən qəbul zamanı vətəndaşların müraciətləri dinlənilib. Komitənin fəaliyyət istiqamətlərinə aid olan müvafiq müraciətlərdən bəziləri yerində həllini tapıb, digərlərinin araşdırılaraq həll edilməsi məqsədilə aidiyyəti üzrə tapşırıqlar verilib.

* * *

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov Füzuli rayonunun Horadiz şəhərində vətəndaşları qəbul edib. Bu barədə AZƏRTAC-a agentliyin İctimaiyyətlə əlaqələr şöbəsindən açıqlama verilib.

Qəbuldan əvvəl AAYDA-nın İdarə Heyətinin sədri Saleh Məmmədov və Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək abidə önünə gül dəstələri düzüb, Ulu Öndərin əziz xatirəsinə ehtiramlarını bildiriblər.

Daha sonra Horadiz şəhərində agentliyin tabeliyində olan "38 N-li Yol İstismarı" MMC-nin inzibati binasında keçirilən qəbulda Füzuli, Beyləqan və Xocavənd rayonlarından olan vətəndaşların müraciət və şikayətləri dinlənilib.

Qəbul zamanı müraciətlər əsasən avtomobil yollarının təmir-bərpası və yenidən qurulması, işə qəbul və digər məsələlərlə bağlı olub. Qəbulda hər bir vətəndaşın müraciəti dinlənilib, şikayətlərin qısa müddətdə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə aidiyyəti struktur bölmələrinin rəhbərlərinə tapşırıqlar verilib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, araşdırılmasına ehtiyac olan müraciətlər nəzarətə götürülüb.

# Elektrik sayğaclarının mənzillərdə və evlərdə quraşdırılması qaydası dəyişib

Elektrik sayğaclarının həyət evlərində quraşdırılması qaydası müəyyənləşib, sayğacların mənzillərdə quraşdırılması qaydası dəyişib.

AZƏRTAC xəbər verir ki, Nazirlər Kabineti bununla bağlı "Elektrik enerjisindən istifadə Qaydaları"na müvafiq dəyişiklik edib.

İndiyə qədər istismarda olan yaşayış binalarında məişət abonentlərinin mənzillərindəki hesablaşma elektrik sayğacları enerjitəchizatı müəssisəsi tərəfindən öz vəsaiti hesabına çıxarılaraq, yaşayış binalarının girişində, yaxud pilləkən meydançalarında quraşdırıla bilərdi. Yeni yaşayış binalarında mənzillər üzrə məişət abonentlərinin hesablaşma elektrik sayğacları yaşayış binalarının girişində, yaxud pilləkən meydançalarında quraşdırılmalı idi. Bu hesablaşma elektrik sayğacları kənardan müdaxilə imkanı olmayan elektrik lövhəsində quraşdırılmalı idi.

Dəyişikliyə əsasən, yaşayış evlərində və yaşayış binalarında məişət abonentlərinin mənzillərindəki istismarda olan hesablaşma elektrik sayğacları enerji təchizatı müəssisəsinin vəsaiti hesabına çıxarılaraq, yaşayış evlərinin hasarının xarici tərəfində (hasar olmadıqda evin fasadında), yaşayış binalarının mənzillərinin girişində, yaxud həmin mənzillərin pilləkən meydançalarında quraşdırılmalıdır. Yeni yaşayış evlərində və yaşayış binalarında məişət abonentlərinin elektrik sayğacları yaşayış evlərinin hasarının xarici tərəfində (hasar olmadıqda evin fasadında), yaşayış binalarının mənzillərinin girişində, yaxud həmin mənzillərin pilləkən meydançalarında kənardan müdaxilə imkanı olmayan elektrik lövhəsində quraşdırılmalıdır.

# Dərman vasitələrinin qeydiyyata alınması Qaydalarına dəyişiklik edilib

Dərman vasitələrinin dövlət qeydiyyatına alınması və reyestrinin aparılması Qaydalarına dəyişiklik edilib. AZƏRTAC xəbər verir ki, Baş nazir Əli Əsədov bununla bağlı qərar imzalayıb.

Qərara əsasən, dərman vasitələrinin və maddələrinin dövlət qeydiyyatı, o cümlədən yenidən dövlət qeydiyyatı və onların qeydiyyat sənədlərində dəyişikliklərin dövlət qeydiyyatı üçün "Dövlət rüsumu haqqında" qanunla müəyyən edilmiş məbləğdə dövlət rüsumu ödəniləcək.

Qeyd edək ki, "Dövlət rüsumu haqqında" qanuna əsasən, dərman vasitələrinin və maddələrinin dövlət qeydiyyatı üçün 150 manat rüsum müəyyən edilib.

Dərman vasitələrinin və maddələrinin yenidən dövlət qeydiyyatı üçün 100 manat rüsum, dərman vasitələrinin və maddələrinin qeydiyyat sənədlərində dəyişikliklərin dövlət qeydiyyatı üçün isə 50 manat rüsum ödənilməlidir.

# Gəncədə Avropa və dünya çempionatlarında fərqlənən idmançılarla görüş olub



Gəncə Şəhər İcra Hakimiyyətində respublika və beynəlxalq yarışlarda yüksək nəticələr qazanmış idmançılar və onların məşqçiləri ilə görüş keçirilmişdir.

Şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov ölkədə idman sahəsində böyük inkişafa nail olunduğunu diqqətə çatdıraraq qeyd edib ki, idmanda qazandığımız nailiyyətlər, dünya və Avropa çempionatlarında idmançılarımızın əldə etdikləri medallar və mükafatlar beynəlxalq idman təşkilatlarında mövqeyimizin xeyli güclənməsinə, dünyada idman ölkəsi kimi tanınmağımıza səbəb olmuşdur. Bu gün Gəncə şəhərindən olan idmançıların beynəlxalq arenada yüksək nəticələr əldə etdiyini diqqətə çatdıran N.Bayramov bu münasibətlə onları təbrik etmiş və idmançı gənclərə yeni nailiyyətlər arzulamışdır.

Çıxış edən şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Həmid Nəsirov 2022-ci ilin ilk rübündə Gəncə idmançılarının şəhərə ümumilikdə 91 medal gətirdiklərini qeyd etmişdir.

İdmançılar və məşqçilər ölkədə idmanın inkişafına və idmançılara göstərilən əvəzsiz qayğıkeşliyə görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirmişlər.

Görüşün sonunda idmançılara mükafatlar təqdim olunmuş və xatirə şəkli çəkilmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# "Sığorta ödənişinin verilməsi Qaydası"na dəyişiklik edilib

"Sığorta ödənişinin verilməsi Qaydası"na dəyişiklik edilib.

AZƏRTAC xəbər verir ki, bu barədə müvafiq qərarı Baş nazir Əli Əsədov imzalayıb.

Sənədə əsasən, sığorta ödənişinin hesablanması üçün sığortaolunanın itirilmiş orta aylıq əməkhaqqı onun "Məşğulluq haqqında" qanunla müəyyən olunmuş qaydada işsiz kimi qeydiyyata alınmasından əvvəlki 12 təqvim ayının əməkhaqqının cəmlənmiş məbləğini 12-yə bölməklə yox, sığorta hadisəsinin baş verdiyi tarixdən tapılacaq.

Bundan əvvəl sığortaolunan əvvəlki 12 təqvim ayının bütün aylarını tam işləmədikdə (lakin işsiz kimi qeydiyyata alınmasından əvvəlki 24 təqvim ayı ərzində 12 təqvim ayından az olmayan müddətə sığorta stajına malikdirsə), sığortaolunanın itirilmiş orta aylıq əməkhaqqının məbləği onun əvvəlki 24 təqvim ayı ərzində faktiki tam işlədiyi aylarda hesablanmış əməkhaqqının cəmlənmiş məbləğinin faktiki tam işlədiyi ayların sayına bölünməsi yolu ilə hesablanırdı.

Artıq bu hesablanma şəxsin işsiz kimi qeydiyyata alınmasından yox, sığorta hadisəsinin baş verdiyi tarixdən aparılacaq.

İndiyədək işsizliyin başlanmasından əvvəlki ardıcıl gələn 36 təqvim ayı ərzində müddətli əmək müqaviləsi ("Məşğulluq haqqında" qanuna uyğun olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən haqqı ödənilən ictimai işlərin təşkili istisna olmaqla) üzrə ən azı 35 ay sığorta stajına malik olan əmək qabiliyyətli şəxslərə işsiz kimi qeydiyyata alındığı tarixdən 3 ay sonra minimum sığorta ödənişi təyin edilirdi.

Bu halda sığorta ödənişinin müddəti 3 ay təşkil edir və hər ay üçün bərabər məbləğdə ödənilirdi. Artıq bu məsələ də işsizliyin başlanmasından yox, sığorta hadisəsinin baş verdiyi tarixdən nəzərə alınacaq. 35 ay sığorta stajı isə 30-a endirilib. Sənəddəki "işsiz kimi qeydiyyata alındığı tarixdən 3 ay sonra" sözləri çıxarılıb.

# "Narkomaniya ümumbəşəri bəladır"



Xırdalan şəhərində Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən İqtisadiyyat və Humanitar kollecində "Narkomaniya ümumbəşəri bəladır" mövzusunda maarifləndirici tədbir keçirilib.

Rayonun hüquq-mühafizə orqanları, gənclər, ictimaiyyət və təhsil işçilərinin nümayəndələrinin iştirak etdikləri tədbirdə bildirilib ki, sağlam nəslin formalaşması istiqamətində ölkəmizdə həyata keçirilən tədbirlər sırasında mühüm istiqamət olan narkomaniya ilə mübarizə kampaniya xarakteri daşımır. Bu gün Azərbaycanda"ağ ölüm"ə qarşı mütəşəkkil mübarizə hamılıqla aparılaraq ümumxalq işinə çevrilir.

Sonra mövzu ətrafında çıxış edənlər narkomaniyanın cəmiyyətin rastlaşdığı və müzakirə etdiyi ən ziyanlı problemlərdən biri olduğu və bu öldürücü bəlanın pəncəsindən yaxa qurtarmağın yolları barədə danışıblar. Problemin həlli yolları ilə bağlı aparılan diskussiyada verilən suallar cavablandırıldıqdan sonra "Narkomaniyaya yox deyək" adlı videoçarx nümayiş etdirilib.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***



# Tərtərdə çiyid səpininə başlanılıb

Bu il rayon üzrə 3446,9 hektarda çiyid səpilməsi nəzərdə tutulub. Səpin aparılacaq təsərrüfatlarda sahələr vaxtında şumlanıb, arata qoyulub, malalanaraq hazır vəziyyətə gətirilib.

Ərazidə fəaliyyət göstərən "MKT İstehsalat Kommersiya" MMC 633, "Azərpambıq" MMC isə 460 istehsalçı ilə müqavilə bağlayıb. Bağlanan müqaviləyə əsasən, pambıq istehsalçıları lazımi texnika, toxum, gübrə və kimyəvi preparatlarla tam təmin edilirlər.

Rayonda 22 səpin aqreqatı hesabına işlərin 10-15 gün müddətinə başa çatdırılacağı planlaşdırılır.

Səpin işlərinin gedişi ilə müntəzəm maraqlanan rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov fermerlərin cari problemlərinin həllində yardımçı olur. Qaraağacı kənd sakini, 2-ci dərəcəli "Əmək" ordenli İlkin Qurbanov və Qazyan kənd sakini Suliddin Ələkbərov və başqaları rayon rəhbərliyinin onların işinə bu cür münasibətindən razılıq edirlər.

Xatırladaq ki, 2021-ci ildə Tərtər rayonunda 3440 hektar sahədə pambıq becərilmiş və hər hektardan 31,1 sentner olmaqla 10 min 701,5 ton məhsul toplanmışdır.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Fermerlərə məsləhətlər verilmişdir

Biləsuvar Rayon İcra Hakimiyyətində taxılçılıqda mövcud durum və yazlıq əkinlərə hazırlıqla bağlı fermerlərlə görüş keçirilib.

Tədbirdə Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov, Kənd Təsərrüfatı Nazirliyinin Aparat rəhbəri Rəfail Quliyev, nazirliyin yerli qurumlarının rəhbərləri, Suvarma Sistemləri İdarəsinin nümayəndələri, kənd ərazi icra nümayəndələri, bələdiyyə sədrləri və fermerlər iştirak ediblər.

F.Qürbətov çıxış edərək rayonda kənd təsərrüfatındakı mövcud durum və yazlıq əkinlərə hazırlığın vəziyyəti ilə bağlı görülən işlərə toxunub, bu sahədə yarana biləcək problemlərin həlli istiqamətində fikirlərini bildirib. Görüşdə çıxış edən Kənd Təsərrüfatı Nazirliyinin Aparat rəhbəri R.Quliyev qeyd edib ki, taxıl sahələrində aqrotexniki qulluq tədbirlərinin düzgün təşkili məhsuldarlığın artmasına birbaşa təsir göstərir. Fermerlər sahələrə gübrə verən zaman normativlərə düzgün riayət etməlidir. Hazırda taxıl əkini sahələrində karbamid gübrəsindən daha geniş istifadə olunur. Nazirlik rəsmisi onu da vurğulayıb ki, aprelin ikinci ongünlüyündən başlayaraq pambıq sahələrində çiyid səpini başlayıb. Fermerlərin əkinə hazırlıq prosesini düzgün aparması, sahələrin arata qoyulması vacibdir. Arata qoyulmuş sahələrdə suya tələbat digər sahələrə görə nisbətən az olur.

Görüş zamanı yazlıq əkinlərdə düzgün toxum seçimi, subsidiya almaq üçün elektron müraciətin formalaşması, fermerlərin gübrə, texnika, pestisidlərlə təminatı məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Qeyd olunub ki, bu ildən etibarən pambıqda yalnız məhsula görə subsidiya veriləcək. Məhsul subsidiyası isə hər tona görə 100 manatdan 170 manata qaldırılıb. Əlavə olaraq şirkətlər pambığın fermerdən alış qiymətini hər sorta görə 50 manat artırıblar. Məhsul subsidiyası almaq üçün fermerlərdən torpaq üzərində mülkiyyət hüququnu təsdiqləyən sənəd tələb olunmur. Lakin fermerlər pambığın hansı kateqoriya torpaqda əkilməsindən asılı olmayaraq öz əkinlərini mütləq Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində bəyan etməli və əkin sahəsinin koordinatlarını sistemə daxil etməlidirlər. Öz pambıq sahələrini sistemdə bəyan etməyən fermerlərin subsidiya almaq üçün elektron müraciətləri formalaşmayacaq.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Türkiyəli şagirdlər azad olunmuş Azərbaycan torpaqlarından xoş təəssüratlarla ayrılıblar






Bir müddət əvvəl Türkiyə məktəbliləri Azərbaycan Prezidenti İlham Əliyevə məktub yazaraq Qarabağın işğaldan azad olunmasına çox sevindiklərini və həmin torpaqlara səfər etmək istədiklərini bildiriblər.

Məktuba dərhal reaksiya verilib. Məktubu yazan Kastamonu şəhərinin Quzeykənd ibtidai məktəbinin 4-cü sinif şagirdləri Prezident İlham Əliyevin tapşırığı ilə Azərbaycana dəvət ediliblər.

AZƏRTAC xəbər verir ki, türkiyəli şagirdlər Azərbaycana səfər çərçivəsində aprelin 14-də Füzuli və Şuşada olublar. Onlara qısa müddətdə inşa olunan Füzuli Beynəlxalq Hava Limanı haqqında ətraflı məlumat verilib. Bildirilib ki, dünyanın heç bir yerində belə qısa vaxtda - 9 aya beynəlxalq hava limanı inşa edilməyib. Bu, Azərbaycan dövlətinin iqtisadi gücünü, qüdrətini bir daha təsdiqləyir. Əvvəllər hava limanının tikildiyi ərazi düşmənin basdırdığı minalarla dolu idisə, bu gün həmin ərazi Qarabağın dünyaya açılan hava qapısına çevrilib. Diqqətə çatdırılıb ki, Füzuli Beynəlxalq Hava Limanına birbaşa uçuş həyata keçirən ilk xarici ölkə lideri də məhz qardaş ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğan olub.

Sonra Şuşaya gələn qardaş ölkənin şagirdləri Azərbaycan şairi və siyasi xadimi Molla Pənah Vaqifin məqbərəsini, Yuxarı Gövhər ağa məscidini, Bülbülün ev-muzeyini ziyarət ediblər. Nümayəndə heyətinə işğal zamanı Azərbaycanın görkəmli şəxsiyyətləri olan Bülbülün, Xurşidbanu Natəvanın və Üzeyir bəy Hacıbəylinin güllələnmiş heykəlləri nümayiş olunub.

Bildirilib ki, qüdrətli Azərbaycan dövləti erməni işğalından azad olunan torpaqlarda sürətli tikinti-quruculuq işləri həyata keçirir. Yeni avtomobil yolları, hava limanları tikilir, dəmir yolu, su və elektrik xətləri çəkilir, müasir yaşayış kompleksləri salınır. Bununla paralel olaraq, tarixi-dini və mədəni abidələrimiz də bərpa olunur.

Səfər proqramının sonunda şagirdlər Cıdır düzündə İstiqlal marşı səsləndiriblər.

Kastomonu vilayətinin milli təhsil idarəsinin müdir müavini Serkan Demirkıran bildirib ki, şagirdlər Prezident İlham Əliyevin bu dəvətindən çox məmnun olublar: "Bu səfər şagirdlərimizin yaddaşında silinməz iz buraxacaq, Azərbaycan sevgisini daha da möhkəmləndirəcək. Onlar geri döndükdə xoş təəssüratlarını, Azərbaycan sevgisini həvəslə bölüşəcəklər".

Kuzeykənd ibtidai məktəbinin direktoru Ümit Yürücüoğlu da ölkəmizə səfərdən məmnunluqlarını dilə gətirib. "Qardaş ölkəyə səfərimizdən çox məmnunuq. Səfərimiz çox mənalı keçir. Prezident İlham Əliyevin şagirdlərimizi Azərbaycana dəvət etməsi qardaşlığımıza daha bir nümunədir", - deyə o əlavə edib.

Qardaş ölkənin şagirdləri Füzuli və Şuşadan xoş təəssüratlarla ayrılıblar.

# Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi fəaliyyət sahələri üzrə 12 beynəlxalq ISO sertifikatı əldə edib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi sistemində idarəetmə və əhaliyə xidmətlərin təkmilləşdirlməsi, bu xidmətlərin şəffaf və operativ, vətəndaş məmnunluğuna uyğun təşkili məqsədilə ISO beynəlxalq standartların tətbiqi istiqamətində də önəmli addımlar atılır.

Dövlət başçısı tərəfindən təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı" üzrə tədbirlər planında da dövlət orqanlarının (qurumlarının) fəaliyyətində korrupsiya risklərinin müəyyən edilməsi, təhlili və qarşısının alınması, eləcə də ISO 37001 "Antikorrupsiya idarəetmə sistemləri" beynəlxalq standartının tətbiqi kimi istiqamətlər əksini tapıb.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, beynəlxalq standartların tətbiqi istiqamətində uğurlu nəticə kimi, ötən il və bu ilin birinci rübü ərzində nazirliyin fəaliyyət sahələri 12 ISO beynəlxalq sertifikatına layiq görülüb.

Nazirliyin tabeliyindəki Dövlət Sosial Müdafiə Fonduna ötən il ISO 10002:2018 ("Keyfiyyət menecmenti - Müştəri-vətəndaş məmnuniyyəti - Təşkilatlarda şikayətlərin idarə edilməsi haqqında təlimat"), ISO 26000:2010 ("Sosial məsuliyyət haqqında təlimat"), ISO 9001:2015 ("Keyfiyyəti idarəetmə sistemləri"), ISO 37001:2016 ("Antikorrupsiya idarəetmə sistemləri"), nazirliyin tabeliyindəki DOST Agentliyinə bu ilin ilk rübündə ISO 9001:2015 ("Keyfiyyəti idarəetmə sistemləri"), ISO 10002:2018 ("Keyfiyyət menecmenti - Müştəri-vətəndaş məmnuniyyəti - Təşkilatlarda şikayətlərin idarə edilməsi haqqında təlimat"), ISO 26000:2010 ("Sosial məsuliyyət haqqında təlimat"), ISO 37001:2016 ("Antikorrupsiya idarəetmə sistemləri"), nazirlik yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinə ötən il ISO 37001:2016 ("Antikorrupsiya idarəetmə sistemləri"), nazirliyin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin Bakı Peşə Hazırlığı Mərkəzinə bu ilin ilk rübündə ISO 9001:2015 ("Keyfiyyəti idarəetmə sistemləri"), ISO 14001:2015 ("Ətraf mühitin idarə olunması və qorunması sistemləri") və ISO 45001:2018 ("Peşə sağlamlığı və təhlükəsizliyi üzrə idarəetmə sistemləri") beynəlxalq sertifikatları təqdim edilib.

Fəaliyyət sahələrinin həmin standartların tələblərinə uyğunlaşdırılması məqsədilə ilkin olaraq əməkdaşlar üçün təlimlər keçirilib, idarəetmə sistemlərinin təkmil və şəffaf şəkildə qurularaq həmin tələblərə uyğunlaşdırılması, sertifikatlaşdırma prosesi təmin olunub. Yekun olaraq qiymətləndirmələr aparılıb və nəticə müsbət dəyərləndirilərək sertifikatlar təqdim olunub.



# "Xarıbülbül" indi də dünyanı Şuşada toplayacaq

## Mədəniyyət paytaxtımızda keçiriləcək "Xarıbülbül" Musiqi Festivalında müxtəlif ölkələrin folklor kollektivləri də çıxış edəcəklər

"...Gələn ay Şuşada "Xarıbülbül" festivalı yenidən keçiriləcək..." Prezident İlham Əliyev bu müjdəni Azərbaycan xalqına aprelin 12-də bu ilin birinci rübünün yekunlarına həsr olunmuş müşavirədə verdi. Ötən il Heydər Əliyev Fondunun təşəbbüsü ilə bu festivalda Azərbaycanda yaşayan xalqların öz istedadını nümayiş etdirdiyini vurğulayan dövlət başçısı bildirdi ki, biz festivalda iştirak etmək üçün dünyanın müxtəlif ölkələrindən folklor kollektivlərini də dəvət etmişik: "Artıq məndə ilkin məlumat var, vaxtından qabaq anons vermək istəmirəm, amma hesab edirəm ki, çox maraqlı festival olacaqdır. Artıq bu ənənəni də biz bərpa etmişik".

Bəli, Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı şanlı zəfər Qarabağda tarixi ənənələrimizin və mədəni tədbirlərimizin də bərpasına yol açıb. Bu gün işğaldan azad olunan torpaqlarımız quruculuq meydanına, Şuşa isə mədəniyyətimizin mərkəzinə, paytaxtına çevrilib. Şuşada gerçəkləşən mədəniyyət tədbirlərinin ilk carçısı isə ötən ilin 12-13 may tarixlərində Cıdır düzündə gerçəkləşən "Xarıbülbül" Musiqi Festivalı olub.

### Uzun sürən nisgildən sonra mənəvi qibləmizə qovuşduq

Şuşa xoşbəxt idi...

İllərdən sonra Qarabağın qızıl qəsri başına bağladığı dumandan çalmasını açıb Günəş kimi ətrafa fərəh saçırdı...

Dağlarının döşünü al qırmızı lalələrə bürüyüb, büllur bulaqları ilə çağlayır, azadlığının qüruru, doğma elobasının hənirini duymağın bəxtəvərliyini yaşayırdı...

Biz isə İlahi sevinc içərisindəydik...

Uzun sürən həsrətdən, nisgildən sonra mənəvi qibləmizə qovuşmuşduq. Azərbaycanın sıldırımlar üzərində inşa edilmiş ən uca şəhərində, Cıdır düzündə dayanıb Topxananı, bütövlükdə Qarabağı seyr edirdik. Köksümüzdə qürur hissi, dilimizdə şükranlıq duası, qulaqlarımızda Azərbaycan muğamının dalğa-dalğa Tanrı dərgahına ucalan sədaları, gözlərimizdə sevinc gözyaşları...

Düz bir qərinədən sonra sevginin simvolu xarıbülbülün vətəninə, yenidən möhtəşəm "Xarıbülbül" Musiqi Festivalını keçirməyə yığışmışdıq...

Mədəniyyət paytaxtımızın mənəvi, mədəni ruhunun da özünə qayıtdığını qeyd etmək üçün...

Azərbaycanda yaşayan bütün xalqların birliyinin, bərabərliyinin Şuşa təntənəsini nümayiş etdirmək üçün...

Ən əsası, işğalçı, faşist xislətli erməni mənfurlarının rəzil ayaq səslərinin bir daha əzəli və əbədi yurdumuzda eşidilməyəcəyinin fəxarətli qürurunu yaşamaq üçün...

### Möhtəşəm ənənə bərpa edildi

"...Biz bu gözəl ənənəni bərpa etdik və bundan sonra "Xarıbülbül" Musiqi Festivalı Şuşada hər il keçiriləcək". Azərbaycan Prezidenti İlham Əliyev bu fikri ötən il Qarabağımızın baş tacında təşkil olunan möhtəşəm "Xarıbülbül" Musiqi Festivalının açılışındakı çıxışı zamanı səsləndirmiş və bu günü ölkəmizin tarixində əlamətdar gün kimi dəyərləndirərək vurğulamışdı ki, ermənilər nə qədər çalışsalar da, Şuşadan Azərbaycan ruhunu silə bilmədilər: "Bəli, mənfur düşmən tərəfindən binalar dağıdıldı, məscidlərimiz dağıdıldı, tarixi abidələrimiz dağıdıldı. Ancaq Şuşa Azərbaycan ruhunu qoruya bildi".

30 illik fasilədən sonra Şuşada Cıdır düzündə təşkil olunan "Xarıbülbül" Musiqi Festivalının ilk günündə ölkəmizdə yaşayan müxtəlif xalqların musiqi yaradıcılığı "Azərbaycan musiqisində multikulturalizm" mövzusunda təqdim edildi. Ölkəmizin müxtəlif bölgələrində yaşayan ayrı-ayrı xalqların musiqi qrupları və ifaçıları öz çıxışları ilə Azərbaycanın millətindən, dinindən asılı olmayaraq hər bir kəsin vahid Vətəni olduğu mesajını bütün dünyaya çatdırdılar. Bu sarsılmaz birliyin heç bir düşmənin gücü, xarici müdaxiləsi ilə pozulmayacağını bir daha bəyan etdilər.

Festivalın açılışındakı çıxışında bu birlik mesajının əhəmiyyətini xüsusi vurğulayan Prezident İlham Əliyev də söylədi ki, Azərbaycanda bütün xalqlar dostluq, qardaşlıq, həmrəylik şəraitində yaşayır və 44 günlük müharibə bir daha onu göstərdi ki, ölkəmizdə milli birlik, milli həmrəylik var: "Təsadüfi deyil ki, birinci festivalda Azərbaycanda yaşayan xalqların nümayəndələri çıxış edəcəklər və bir daha biz bütün dünyaya buradan - Şuşadan, qədim torpağımızdan mesaj veririk".

### Hər bir azərbaycanlının iftixar mənbəyi

Prezident İlham Əliyevin təşəbbüsü və Heydər Əliyev Fondunun təşkilatçılığı ilə ölkəmizin mədəniyyət paytaxtı Şuşanın Cıdır düzündə keçirilən "Xarıbülbül" Musiqi Festivalı mayın 13-də qala-konsertlə başa çatmışdı. Qala-konsertdə Üzeyir bəy Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri, Azərbaycan Dövlət Xor Kapellası çıxış etmiş, Üzeyir bəy Hacıbəylinin, Fikrət Əmirovun, Qara Qarayevin, Ələkbər Tağıyevin, Müslüm Maqomayevin, Niyazinin, Tofiq Quliyevin, Vasif Adıgözəlovun və digər bəstəkarların əsərləri təqdim olunmuşdu.

Konsertdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin vaxtilə işğal altında olan ərazilərimiz haqqında söylədiyi "Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün bu, iftixar mənbəyidir. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir..." fikirlərini və Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin Şuşa şəhərinin 2020-ci il noyabrın 8-də işğaldan azad edildiyi gün xalqımıza müraciətində dediyi "Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları! Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" sözlərini əks etdirən videoçarx da təqdim edilmişdi. Vətənin bütövlüyü ilə bağlı Ümummilli Liderin, Prezident İlham Əliyevin və onların timsalında bütövlükdə Azərbaycan xalqının illərdir arzuladığı xoşbəxt məqama çatdığının mesajı verilmişdi.

### Şuşanı şanına, şöhrətinə yaraşan tarixi günlər gözləyir

"Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı ilk dəfə Şuşa şəhərində məşhur xanəndə Seyid Şuşinskinin 100 illik yubileyi ilə əlaqədar 1989-cu ildən keçirilməyə başlayıb. Həmin ilin mayında, Şuşada xarıbülbülün çiçəklənmə dövründə Cıdır düzündə keçirilən festivalda yerli ifaçılarla yanaşı, Qırğızıstan, Qazaxıstan, Başqırdıstan, Litva və Belarusdan da musiqi qrupları iştirak edib.

Şuşada füsunkar gözəlliyi ilə seçilən Cıdır düzündə 1992-ci ilədək hər il may ayında keçirilən "Xarıbülbül" Musiqi Festivalı əhəmiyyətinə, səviyyəsinə, rəngarəngliyinə görə nəinki Azərbaycanda, bütün keçmiş sovet məkanında, hətta dünya miqyasında möhtəşəm mədəniyyət tədbirlərindən biri sayılıb.

İndi Şuşada başlayan yeni həyatla birgə bu tarixi festival da əvvəlki şöhrətinə qovuşub. İndi Şuşanın dağlarında, düzlərində düşmənin murdar ayaq səsi deyil, ruha məlhəm kimi yayılan Azərbaycan muğamının zəngulələri eşidilir. Necə ki, elə "Xarıbülbül" Musiqi Festivalının ilk günündə jurnalistlərlə söhbəti zamanı Prezident İlham Əliyev vurğulamışdı: "...Bir il bundan əvvəl burada başqa musiqi səslənirdi, başqa hərəkətlər edilirdi. O hərəkətlərə görə, bütün cinayətlərə görə düşmən öz layiqli payını aldı. Bundan sonra burada ancaq Azərbaycan musiqisi, Azərbaycanda yaşayan xalqların musiqisi səslənəcək. Doğrudan da, böyük tarixi nailiyyətdir".

Ümumiyyətlə, mədəniyyət paytaxtımız Şuşa adına, şanına, şöhrətinə yaraşan tarixi günlərə qanad açıb. Bu əsrarəngiz şəhər yaradılmasının 270 illiyini qeyd edəcək. 2023-cü ildə isə ümumilikdə türk dünyasının qürur mənbəyi olan Şuşa "Türk dünyasının mədəniyyət paytaxtı" kimi mədəni irsinin möhtəşəmliyini nümayiş etdirəcək.

Eləcə də gələn ay dünyanın müxtəlif ölkələrindən folklor kollektivləri Şuşaya gələrək "Xarıbülbül" Musiqi Festivalında öz çıxışlarını nümayiş etdirəcəklər. Bir daha Qarabağın qədim qalası, Azərbaycanın mədəniyyət paytaxtından bütün dünyaya dostluq, qardaşlıq və sülh mesajı verəcəklər...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Azad edilmiş ərazilərdə dislokasiya olunan bölmələrin təminatı yüksək səviyyədədir

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən azad edilmiş ərazilərdə dislokasiya olunan bölmələrin xidməti-döyüş fəaliyyətinin təşkili, hərtərəfli təminatı və sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı tapşırıqlar planlı şəkildə icra olunur.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, çətin relyefli və sərt iqlim şəraitli ərazilərdə gecə və gündüz fasiləsiz xidmət aparan şəxsi heyətin döyüş qabiliyyətinin daha da artırılması, döyüşə hazırolma vəziyyətinin yüksək səviyyədə saxlanılması üçün müasir tipli hərbi infrastruktur obyektləri inşa edilir, eləcə də digər zəruri tədbirlər həyata keçirilir.

Bu tədbirlər çərçivəsində azad olunmuş ərazilərdə hərbi avtomobillərin daima işlək və saz vəziyyətdə saxlanılması məqsədilə texniki xidmət və təmir məntəqələri, eləcə də akkumulyator sexləri yaradılır. Müasir avadanlıqlarla təchiz olunan məntəqələrdə avtomobillərə texniki xidmətin və plana uyğun mövsümi qulluğun göstərilməsi üçün hər cür şərait mövcuddur.

Texniki xidmət və təmir məntəqələrinə daxil olan avtomobil texnikalarında aşkarlanan nasazlıqlar təmir sexlərində qısa zaman ərzində aradan qaldırılaraq yenidən bölmələrin sərəncamına verilir.

Avtomobil texnikalarının fasiləsiz və dayanıqlı istismarını təmin etmək məqsədilə bu məntəqələr yüksəkkeyfiyyətli yanacaq-sürtkü materialları, digər zəruri ehtiyat hissələri və avadanlıqlarla təmin edilir. Döyüş texnikalarının və hərbi nəqliyyat vasitələrinin texniki göstəricilərinin yüksək səviyyədə saxlanılması, həmçinin mövsümi tələblərə uyğun daim istismara hazır vəziyyətdə olması təmin edilir. Bundan əlavə, bu məntəqələrdə sex rəisi, çilingər, qaynaq və yuyunma otaqları, həmçinin AKB sexi və ZT anbarı da vardır. AKB sexi akkumulyator batareyalarına texniki xidmətin göstərilməsi üçün suyun distillə olunması, AKB doldurulması və saxlanılması otaqlarından ibarətdir.

# Vəziyyət yaxşılaşır

## Qadağalar ləğv edilə bilər

Son vaxtlar Azərbaycanda COVID-19 pandemiyası ilə bağlı vəziyyətin sabit olduğu müşahidə edilir. Koronavirusa yoluxanların, eyni zamanda aktiv xəstələrin sayı azalmaqdadır.

Son həftədə isə virusdan ya ölüm halı baş verməyib, ya da çox az sayda qeydə alınıb. Vəziyyətin stabilləşməsi ilə əlaqədar digər ölkələrdə olduğu kimi, Azərbaycanda da karantin rejimi qaydalarında yumşalmalara gedilir.

Səhiyyə naziri Teymur Musayev də Azərbaycanın COVID-19-la uğurla mübarizə apardığını və ölkədə pandemiya şəraitinin nəzarət altında olduğunu qeyd edib. Hazırda ölkədə COVID-19-la bağlı vəziyyət yaxşı olsa da, səhiyyə qurumları vətəndaşları daim tədbiri əldən verməməyə, ehtiyatlı olmağa çağırır. Həkimlər 3 əsas qaydaya - əl gigiyenası, maska taxılması və sosial məsafəyə riayət olunması qaydalarının vacibliyini xatırladır, xəstəliklə mübarizədə ən təsirli yolun yalnız peyvənd olduğunu vurğulayırlar.

### Yeni dalğaların baş verməsi istisna deyil

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) pandemiyanın hələ sona çatmadığını və vəziyyətin necə dəyişəcəyini proqnozlaşdırmağın çətin olduğunu bildirir. Pandemiya ilə mübarizədə ən effektiv yolun hələ də vaksinasiya olduğu qeyd edilir.

Azərbaycan pandemiyanın ilk günlərindən etibarən lazımi addımlar atmaqla, beynəlxalq təşkilatlarla dərhal müvafiq əməkdaşlığa başlayıb. Beləliklə, Cənubi Qafqazda koronavirus əleyhinə peyvəndləməyə başlayan ilk ölkə kimi Azərbaycanda xəstəliklə mübarizədə əhalinin növbəlilik prinsipi ilə vaksinasiyadan keçməsi, sıx tımasların yaranmaması üçün "Randevü" sistemi yaradılıb. Əhaliyə peyvənd növünü seçməyə imkan verilib. İndiyə qədər ölkə əhalisinin 50 faizindən çoxu vaksinasiyadan keçib.

Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, infeksionist Təyyar Eyvazov qəzetimizə bildirib ki, pandemiya hələ davam edir və yeni dalğaların baş verməsi istisna deyil. Biz müşahidə etmişik ki, ayrı-ayrı illər üzrə bu dalğalanma eyni aylara düşmür, ona görə də müxtəlif illərdə yoluxma saylarını bir-biri ilə tutuşdurmaq məqsədəuyğun deyil.

İnfeksionist qeyd edir ki, hazırda vəziyyət stabildir və yoluxanlar arasında "Omikron" ştamı daha çox aşkarlanıb. Bu ştamın xüsusiyyətlərinə görə, əsasən yuxarı tənəffüs yolları zədələnir və çox az halda bəzi risk qrupuna daxil olan, peyvənd olunmayan şəxslərdə ağciyərlərin zədələnməsi halına rast gəlinir. Xəstəlik daha çox digər respirator virus infeksiyalarını xatırladır, əsasən subfebril hərarət, ümumi zəiflik, əzginlik, baş, əzələ ağrıları, boğazda qaşınma və ya ağrı hissi, quru öskürək, burun axması və ya tutulması halları ilə müşahidə olunur. Xəstəlik əksər vaxt yüngül keçir. Bu gün aktiv xəstələrin sayı da çox azdır, onlardan az hissəsi xəstəxanalarda müalicə alırlar.

### Maska qadağasının ləğvi ilə bağlı məsləhətləşmələr gedir

Həkimin sözlərinə görə, vəziyyət belə davam edərsə, maska qadağası ləğv edilə bilər, bu barədə məsləhətləşmələr gedir, lakin son qərarın verilməsi Nazirlər Kabineti yanında Operativ Qərargahın səlahiyyətlərinə aiddir.

Hazırda müxtəlif ölkələrdə yeni mutant ştamların yayılması ilə əlaqədar yoluxma hallarında sürətli artım görünür. Ancaq ayrı-ayrı ölkələrdə koronavirusa qarşı kollektiv immunitet fərqli və dəyişkəndir. Ölkəmizdə də bu cür artımların baş verməsi istisna deyil, ancaq bunun üçün ən azından qonşu ölkələrdə epidemioloji durumun pisləşməsi müşahidə edilməlidir. Həkimin fikrincə, hələ ki, bu hal görünmür, ona görə vəziyyətin bir müddət stabil davam edəcəyini söyləmək olar.







### Bir çox ölkədə vaksinasiya göstəricisi aşağıdır

Azərbaycanla yanaşı, bəzi ölkələrdə koronavirusa yoluxma, eyni zamanda ölüm sayı aşağı düşsə də, digər ölkələrdə yoluxma hallarında artım müşahidə edilir. Mütəxəssislər qeyd edirlər ki, "Omikron" ştamı ağır xəstəliyə səbəb olmur, amma onun alt variantlarının yoluxuculuq qabiliyyəti yüksək olduğu üçün sürətlə yayılır.

Nəticədə xəstəlikdən ölüm halları az olsa da, yoluxma sayları artır. Onların fikrincə, karantin qaydalarının yumşaldılması tədbirləri zamanı ölkədə peyvənd olunan əhalinin faiz göstəricilərinə diqqət yetirilməlidir.

Hər bir halda dünyada pandemiyanın sona çatması üçün yeganə çıxış yolunun vaksinasiya nəticəsində koronavirusa qarşı yaranan kütləvi immunitetin olduğu bildirilir. Ölkərarası gediş-gəlişlər, əlaqələrin olması nəzərə alınaraq hər bir dövlət vətəndaşlarını peyvənd olunmağa çağırır. Bununla yanaşı, Ümumdünya Səhiyyə Təşkilatı hələ də bir çox ölkədə vaksinasiya göstəricisinin aşağı olduğunu qeyd edir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## "Respublika Diaqnostika Mərkəzi" ASC-nin səhmdarlarının nəzərinə

"Respublika Diaqnostika Mərkəzi" ASC (VÖEN: 1300143511) 06 iyun 2022-ci il saat 15:00-da səhmdarların illik ümumi yığıncağını keçirir.

Səhmdarların ümumi yığıncağı zamanı gündəliyə çıxarılacaq məsələlər:

1. Cəmiyyətin 2021-ci il üzrə "İllik hesabat"ının, mənfəət və xərc hesabatının təsdiq edilməsi;
2. 2022-ci ildə görüləcək işlərin və digər məsələlərin müzakirəsi.

Ünvan: Bakı şəhəri, Tbilisi prospekti, 147.

*Rəhbərlik*

◆ **Dünya gündəmi**

# Üfüqdə ümid yaranır

## BMT Təhlükəsizlik Şurasının Yəmən üzrə toplantısı keçirilib



"Yəməndə uzun illər davam edən silahlı münaqişə və onunla bağlı böhranlardan sonra bu ölkədə ümidlər puça çevrilib. Lakin mən hər halda ümid edirəm ki, bu gün müşahidə etdiyimiz dəyişikliklər bütün yəmənlilər üçün dinc və firavan gələcəyə yol açmaqda kömək edəcək".

Bu barədə BMT Təhlükəsizlik Şurasının Nyu Yorkda keçirilən iclasında çıxış edən BMT Baş katibinin humanitar məsələlər üzrə müavini və fövqəladə yardımın əlaqələndiricisi Martin Qriffits bildirib.

Ötən ay Yəməndə silahlı münaqişə tərəfləri iki ay müddətində hərbi əməliyyatları dayandırmağa razılaşıblar. Qiyamçı hövsilər və hökumət qüvvələri arasında barışıq aprelin əvvəlində - müsəlmanlar üçün müqəddəs Ramazan ayının ilk günü qüvvəyə minib. "Bir neçə rayonda hələ də davam edən lokal toqquşmalar haqda məlumatların daxil olmasına baxmayaraq, ölkədə hərbi əməliyyatların qızışması kəskin şəkildə azalmağa başlayıb", - deyə Martin Qriffits bildirib.

Onun sözlərinə görə, mülki əhali arasında itkilərin sayı son aylarda ən aşağı səviyyəyə enib. Yəmən limanlarına ölkə üçün çox zəruri olan yanacaqla dolu yeni gəmilər gəlir.

### Atəşkəs müharibənin dayandırılması üçün ilk addım olmalıdır

BMT Baş katibinin müavini vurğulayıb ki, barışın özü ilə yanaşı, üfüqdə digər yaxşı xəbərlər də var. Belə ki, Yəmən üzrə bu yaxınlarda keçirilmiş məsləhətləşmələrdə elan edilmiş üç milyard dollar məbləğində iqtisadi dəstək paketi beynəlxalq ictimaiyyət tərəfindən təsdiqlənib. Bu təşəbbüs Yəmən Mərkəzi Bankının yanacağın tədarükünü, iqtisadi inkişafda yardımı və yeni iki milyard dollar həcmində depoziti nəzərdə tutur ki, bu da yerli valyutanı sabitləşdirməyə kömək edəcək.

BMT-nin Yəmən üzrə xüsusi elçisi Hans Qrundberq Təhlükəsizlik Şurası qarşısında çıxış edərkən bildirib: "Atəşkəs müharibə nəticəsində tükənmiş Yəmənə uzunmüddətli sülh yoluna çıxmaq üçün nadir imkan yaradır. Qarşıdan gələn həftələr tərəflərin öhdəliklərinin yerinə yetirilməsinə sadiqliklərinin yoxlanması olacaq. Etimadın möhkəmləndirilməsi üçün vaxt gəlib çatıb. Düzdür, yeddi ildən artıq davam edən silahlı münaqişədən sonra buna nail olmaq asan olmayacaq. Yəmənə beynəlxalq ictimaiyyətin dəstəyi həmişəki kimi lazımdır. Biz hazırkı impulsumuzu qoruyub saxlamağa və münaqişənin hərtərəfli və davamlı şəkildə dayandırılmasına doğru irəliləməyə kömək etməliyik".

### Kənardan yardım Yəmən xalqı üçün xilasedici ola bilər

Xatırladaq ki, bir müddət əvvəl BMT-nin Baş katibi Antoniu Quterreş ölkədəki vəziyyət barədə danışarkən demişdi: "Yeddi ildir ki, Yəmən xalqı böyük miqyasda ölüm, dağıntılar, insanların kütləvi köçü, aclıq, terror və yoxsulluqla üzləşir. Azı 10000 uşaq da daxil olmaqla, on minlərlə dinc sakin həlak olub. Milyonlarla məcburi köçkün üçün sağ qalmaq gündəlik mübarizəyə çevrilib".

BMT başçısının dediyinə görə, Ukraynada müharibə vəziyyəti daha da ağırlaşdıracaq, çünki ərzaq, yanacaq və digər vacib məhsulların qiyməti kəskin şəkildə artacaq. Dünya Ərzaq Proqramı vəsait çatışmazlığı səbəbindən qida paylarını iki dəfə azaltmaq məcburiyyətində qalıb və daha da azalma gözlənilir. Hər üç yəmənlidən ikisi - 20 milyon kişi, qadın və uşaq həddindən artıq yoxsulluq şəraitində yaşayırlar.

"Kənardan yardım Yəmən xalqı üçün xilasedici ola bilər. Keçən il donorlar Yəməndəki vəziyyətə humanitar reaksiya planı çərçivəsində 2,3 milyard dollardan artıq vəsait ayırıblar və bunun sayəsində hər ay 12 milyona yaxın insan xilasedici yardım alıb",- deyə Antoniu Quterreş vurğulayıb.

Baş katib bildirib ki, beynəlxalq ictimaiyyətin dəstəyi Yəmənin uçuruma daha da düşməsinin qarşısını almağa kömək edib. Son aylarda BMT həyati proqramların təxminən üçdəiki hissəsinin maliyyələşdirməsini azaltmaq və ya tamamilə bağlamaq məcburiyyətində qalıb.

Sonda Antoniu Quterreş donorlara üz tutaraq deyib: "Mən donorların səxavətli ianələr etməsini xahiş edirəm. Humanitar reaksiya planımıza 17,3 milyon insana yardım etmək üçün 4,27 milyard dollar ayrılmasına yönələn koordinasiya edilmiş layihələr daxildir. Bu maliyyələşdirmə təxminən yeddi milyon yəmənlinin qidalanmasını təmin edəcək. 11 milyon insan içməli su, sanitariya və gigiyena məhsulları alacaq. Beş milyon uşaq məktəbdə təhsilini davam etdirə biləcək".

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***


# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

*qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.
Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


## Şamaxı Rayon İcra Hakimiyyəti simsiz telefonların kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Kotirovka sorğusunda iştirak etmək üçün təkliflər (nəqliyyat, sığorta, gömrük rüsumları və digər xərclər nəzərə alınmaqla) digər zəruri sənədlərlə birlikdə 19 aprel 2022-ci il saat 15:00-dək Şamaxı Rayon İcra Hakimiyyətinin ünvanına təqdim olunmalıdır. Zərflər 22 aprel 2022-ci il saat 15:00-da həmin ünvanda açılacaqdır.

Maraqlananlar müvafiq məlumatları Şamaxı Rayon İcra Hakimiyyətinin Şamaxı şəhər, Heydər Əliyev küçəsi, 27 ünvanında yerləşən inzibati binasına yazılı müraciət etməklə əldə edə bilərlər.

Telefon: +994 20 265-15-55, **Mail@samaxi-ih.gov.az**

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

05 mart 2022-ci il tarixdə dövlət satınalmalarının vahid internet portalında və Azərbaycan Respublikasının Mərkəzi Bankının rəsmi internet səhifəsində verilmiş Azərbaycan Respublikası Mərkəzi Bankının maliyyə hesabatlarının auditinin keçirilməsi üzrə xidmətin satın alınması ilə bağlı açıq tender Tender komissiyasının 14 aprel 2022-ci il tarixli qərarına əsasən "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə müvafiq olaraq baş tutmamış hesab edilmişdir.

*Tender komissiyası*

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəhbərliyi Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini
**İLQAR FƏTİ OĞLU FƏTİ-ZADƏNİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, komitə sədrinin müavini Rəşad Mahmudov və komitə üzvləri Kamilə Əliyeva, Kamaləddin Qafarov, Ülvi Quliyev, Müşfiq Məmmədli, İlham Məmmədov, Soltan Məmmədov, Anatoliy Rafailov, Sədaqət Vəliyeva və Milli Məclis Aparatının əməkdaşları Nigar Qurbanova və Zaur Adıgözəlov Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruca əzizi
**SABİR KƏRİMOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, komitə sədrinin müavini Rəşad Mahmudov və komitə üzvləri Kamilə Əliyeva, Kamaləddin Qafarov, Ülvi Quliyev, Müşfiq Məmmədli, İlham Məmmədov, Soltan Məmmədov, Anatoliy Rafailov, Sədaqət Vəliyeva və Milli Məclis Aparatının əməkdaşları Nigar Qurbanova və Zaur Adıgözəlov Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərova qardaşı
**ƏLİ ƏSGƏROVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Samir Nuriyev və struktur bölmələrinin rəhbərləri Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini
**İLQAR FƏTİ OĞLU FƏTİ-ZADƏNİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəhbərliyi Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərova qardaşı
**ƏLİ ƏSGƏROVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının maliyyə naziri nazirin birinci müavini
**İLQAR FƏTİ-ZADƏNİN**
vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və əzizlərinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin kollektivi nazirin birinci müavini
**İLQAR FƏTİ-ZADƏNİN**
vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və əzizlərinə dərin hüznlə başsağlığı verir.

---

Gəncə Dövlət Universitetinin rektoru Yusif Yusibov Azərbaycan Respublikası maliyyə nazirinin müavini
**İLQAR FƏTİ OĞLU FƏTİ-ZADƏNİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi maliyyə nazirinin birinci müavini
**İLQAR FƏTİ-ZADƏNİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Səhiyyə Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini
**İLQAR FƏTİ OĞLU FƏTİ-ZADƏNİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərliyi və kollektivi maliyyə nazirinin birinci müavini
**İLQAR FƏTİ OĞLU FƏTİ-ZADƏNİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Mərkəzi Bankın sədrinin birinci müavini Alim Quliyev Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini
**İLQAR FƏTİ-ZADƏNİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru professor Ədalət Muradov və universitetin kollektivi Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini
**İLQAR FƏTİ-ZADƏNİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının maliyyə nazirinin birinci müavini
**İLQAR FƏTİ-ZADƏNİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərova qardaşı
**ƏLİ ƏSGƏROVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruca əzizi
**SABİR KƏRİMOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini
**İLQAR FƏTİ-ZADƏNİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının müdafiə sənayesi naziri Mədət Quliyev və nazirliyin kollektivi Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini
**İLQAR FƏTİ-ZADƏNİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüzünlə başsağlığı verirlər.

---

Energetika Nazirliyinin rəhbərliyi və kollektivi maliyyə nazirinin birinci müavini
**İLQAR FƏTİ OĞLU FƏTİ-ZADƏNİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov və icra hakimiyyətinin kollektivi Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini
**İLQAR FƏTİ-ZADƏNİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Memarlar İttifaqının İdarə Heyətinin sədri Elbay Qasımzadə Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini
**İLQAR FƏTİ OĞLU FƏTİ-ZADƏNİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Baba Rzayev və "Azərenerji" ASC-nin kollektivi Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini
**İLQAR FƏTİ OĞLU FƏTİ-ZADƏNİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini
**İLQAR FƏTİ-ZADƏNİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərova qardaşı
**ƏLİ ƏSGƏROVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin rəhbərliyi və kollektivi maliyyə nazirinin birinci müavini
**İLQAR FƏTİ-ZADƏNİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədov və palatanın kollektivi Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini
**İLQAR FƏTİ-ZADƏNİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Texniki Universitetinin rektoru professor Vilayət Vəliyev və universitetin kollektivi maliyyə nazirinin birinci müavini
**İLQAR FƏTİ-ZADƏNİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan İnvestisiya Holdinqinin kollektivi maliyyə nazirinin birinci müavini
**İLQAR FƏTİ-ZADƏNİN**
vəfatından kədərləndiyini bildirir, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin kollektivinə və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının maliyyə nazirinin birinci müavini
**İLQAR FƏTİ-ZADƏNİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5714
Sifariş 987
Qiyməti 40 qəpik